www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 iyul 2024-cü il Çərşənbə № 128 (8501) Qiyməti 60 qəpik

Xəbər

**Süni intellekt xərçəngə qarşı - tanınmış onkoloq deyir ki...**

yazısı səh.15-də

## Gündəm

**Avropa Birliyindən sülhə xain zərbə**



Qurum ilk dəfə Ermənistana silah üçün pul ayırdı, sərhəddə isə...

yazısı səh.5-də

**Ali Baş Komandanın Şuşa mesajları - dünya ondan danışır**

yazısı səh.4-də

**İşğalçıdan təzminat tələbimiz sülh sənədindən sonraya qalır?**

yazısı səh.4-də

**Əhməd Əhmədovun məhkəməsində fasilə yarandı - səbəb**

yazısı səh.3-də

**Azərbaycana qarşı informasiya savaşı: "atəş nöqtələri"nə nöqtəvi zərbələr**

yazısı səh.7-də

**Ukrayna üçün kritik 6 ay - Kiyevi gözləyən sürpriz**

yazısı səh.14-də

**Bakı AŞ PA-ya seçkilərlə bağlı dəvət göndərmədi - motiv**

yazısı səh.3-də

**Döyülən Xalq artisti kimə xəsarət yetirib? - təfərrüat**

yazısı səh.2-də

**ABŞ-ın 47-ci prezidenti qadın olsa, ilk olacaq**

yazısı səh.12-də

**"İynə ucunda ölüm" - inyeksiya fəsadlarından necə qorunmalı...**

yazısı səh.11-də

*Kulturoloq:*

**"Meyxanaçının efirdə ləhcə ilə danışması normaldır"**

yazısı səh.13-də

# AZƏRBAYCANA QARŞI MƏKRLİ OYUN - SÜLH BU İL DƏ SƏNƏDLƏŞMƏSƏ...

Kapitulyant ölkənin rəhbərliyi hələ də "bəlkə də qaytardılar" ümidi ilə yaşayır; **analitiklərdən xəbərdarlıq:** "Paşinyan Ermənistan üçün ən pis variantın ardınca gedir"



yazısı səh.8-də

# İrəvandakı səfir Putinin imzasına qarşı - Rusiya Zəngəzur dəhlizinin əleyhinədir?

Sergey Kopırkin "oriyentir"i itirib; Moskva üçün vacib layihəyə qarşı çıxışın pərdəarxası; Bakıdan reaksiyalar

yazısı səh.9-da



**Tramp gəlsə, dolları zəiflədəcək mesajı - manatı nə gözləyir?**

yazısı səh.10-da



**Hacı İbrahim Nehrəmlinin qardaşı hakim qarşısına çıxarılır**

yazısı səh.11-də



**Paşinyan Bakıya gəlsə də, gəlməsə də uduşda Bakı olacaq**

yazısı səh.6-da



## Döyülən xalq artisti kimə xəsarət yetirib? - təfərrüat

**Xalq artisti Ağadadaş Ağayevin münaqişə zəminində paytaxt sakinlərindən birinə xəsarət yetirdiyi barədə xəbər yayılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən olayla bağlı Musavat.com-a bildirilib ki, iyulun 22-də Bakı şəhər sakini olan N.Cəlilov ərizə ilə polisə müraciət edərək həmin gün saat 07 radələrində gözətçi işlədiyi özəl tibb müəssisələrindən birində olan zaman paytaxt sakini Ağadadaş Ağayevin xuliqanlıq zəminində onu söyərək təhqir etdiyini, əlindəki balta ilə onu hədələdiyini bildirib.**

N.Cəlilov daha sonra izahatında A.Ağayevin baltanı ona tərəf atan zaman orada çalışan N.Paşayevanın ayaq nahiyəsinə dəydiyini və xəsarət yetirdiyini də qeyd edib.

Məlumatlara görə, hadisə Binəqədi rayonu ərazisində Ağadadaş Ağayevin yaşadığı binanın həyətində, özəl klinika ilə üzbəüz yerləşən ərazidə baş verib. Bildirilir ki, xəstəlikdən əziyyət çəkən xalq artistinin halı pisləşdiyi üçün klinikadan yardım istəyib. Evinin eyvanına çıxan Ağadadaş Ağayev xəstəxananın personalına müraciətlə vəziyyətinin pis olduğunu, təcili həkim yardımına ehtiyacının olduğunu deyib. Mühafizəçi isə onu klinikaya dəvət edib. Bu zaman A.Ağayevin əlindəki baltanı mühafizəçiyə tulladığı deyilir. Balta yerə düşəndən sonra orada işləyən xadimənin ayağına dəyib.

Qeyd edək ki, A.Ağayev uzun müddətdir ki, onkoloji xəstəlikdən əziyyət çəkir.

Az sonra olayı əks etdirən videogörüntülər yayılıb. Orada xalq artistinin əlbəyaxa dava zamanı vurularaq yerə yıxıldığı görünür. Baltanın klinikada çalışan işçilərdən birinin ayağını zədələdiyi haqda məlumat yayılsa da videoda fərqli mənzərə ortaya çıxır. Belə ki, baltanın kiməsə dəymədiyi, yerə düşdüyü, əvəzində isə mühafizəçinin xalq artistini qəddarcasına döydüyü, yerə yıxıldıqdan sonra belə Ağayevi təpiklədiyi aydın olur.

İnsidentlə bağlı araşdırma aparılır.

## Həkimdən SOS!: "Yağ və şəkər yeməyənlər səhv edir"

**"Beyin insan bədənində ən piyli orqandır". Oxu.Az xəbər verir ki, bu barədə rusiyalı qeriatr, tibb elmləri doktoru, professor, ekspert Kirill Proşayev Gazeta.ru-ya maraqlı açıqlamalar verib.**

"Həqiqətən beynin təxminən 75%-ni su təşkil edir. Amma suyu istisna etməklə, quru maddə əsasında hesablasaq, o zaman beynin 80%-nin yağ olduğu ortaya çıxır. Ona görə də yağları qida rasionundan çıxaran insanlar səhv hərəkət edirlər. Çünki yağ çatışmazlığı şəraitində beynin fəaliyyəti çətinləşir", - deyə həkim qeyd edib.

Onun sözlərinə görə, beyni qidalandırmaq üçün orqanizmə xüsusilə faydalı doymamış yağ turşuları daxil olmalıdır. "Məsələn, bu turşular balıq (siyənək, qızılbalıq, skumbriya) və dəniz məhsullarında, bitki yağlarında (kətan, zeytun), qoz-fındıq (qoz, püstə, keşyu), paxlalı bitkilərdə (mərci, lobya) və bəzi digər məhsullarda mövcuddur", - deyə Proşayev əlavə edib.

Bundan başqa, mütəxəssisin fikrincə, beynin effektiv işləməsi üçün həmçinin şəkərə də ehtiyac var. İstehlak etdiyimiz qlükozanın təxminən 25%-i beyinə bədəndə müxtəlif prosesləri işə salmaq üçün lazımdır.

"Şəkər beyin üçün enerjidir, ona görə də "şəkər - ağ ölümdür" ifadəsi tamamilə yanlışdır. Beynin qlükozaya ehtiyacı var. Amma bu, təbii, o demək deyil ki, biz şəkər yeməliyik. Tərkibində şəkər olan qidaları (banan, bal və s.) qida rasionunuza daxil etmək vacibdir, lakin normanı aşmamaq lazımdır. Fövqəladə hallarda, beyin həddindən artıq məlumat yükündən donduqda və hələ də işləməyə davam etmək məcburiyyətindəsinizsə, bir parça şokolad və ya dadlı konfet zərər verməyəcək, əksinə, kömək edəcək", - deyə həkim vurğulayıb.

# Azərbaycan 20 beynəlxalq təşkilata dəvət göndərdi




**Milli Məclisə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərlə əlaqədar Azərbaycanın dəvət göndərdiyi beynəlxalq təşkilatların siyahısı məlum olub. Bu barədə Musavat.com-a Azərbaycanın Xarici İşlər Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, Xarici İşlər Nazirliyi tərəfindən seçkiləri izləmək üçün 7 beynəlxalq təşkilata dəvət göndərilib. Bunlar ATƏT DTİHB, Müstəqil Dövlətlər Birliyi (MDB), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), GUAM, Qoşulmama Hərəkatı Gənclər Təşkilatı, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və Türk Dövlətləri Təşkilatıdır (TDT).

Milli Məclis tərəfindən isə 13 beynəlxalq təşkilata dəvət göndərilib. Bunlar arasında ATƏT RA, MDB PA, TÜRKPA, İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqı (İƏT Pİ), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi (QDİƏTPM), GUAM PA, Asiya Parlament Assambleyası (APA), Pan-Afrika Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası (İƏT PA), Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyası (AIPA), Ərəb Parlamenti, Beynəlxalq Parlamentarilər Konqresi (IPC), Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) yer alır.

## Övladını girov götürən və zərərsizləşdirilən kimdir?

**Srağagün Bakının Suraxanı rayonunda azyaşlını girov götürən və daha sonra polis tərəfindən zərərsizləşdirilən şəxslə bağlı təfərrüat məlum olub.**

Musavat.com Report-a istinadla xəbər verir ki, hadisə Hövsan qəsəbəsində 76 nömrəli məktəbin yaxınlığında yerləşən binada qeydə alınıb. Əvvəllər məhkum olunan Xosrov Əhmədov öz azyaşlı övladının boğazına bıçaq dirəyərək onu öldürəcəyini bildirib.

Hadisə yerinə gələn polis əməkdaşları Xosrov Əhmədovu bu əməlindən yayındırmağa çalışıb. Dəfələrlə polisin qanuni tələblərinə və xəbərdarlıqlarına baxmayaraq, X.Əhmədov öz azyaşlı övladını öldürəcəyini bildirib. Polis əməkdaşları azyaşlının həyatını xilas etmək üçün Xosrov Əhmədovu zərərsizləşdirib. Xosrov Əhmədovun əvvəllər peşəkar idmançı olduğu bildirilib. O, ağırlıqqaldırma üzrə Azərbaycan çempionu olub və bir sıra beynəlxalq yarışlarda iştirak edib.

O, "Beton Xosrov" ləqəbi ilə tanınıb və sosial şəbəkələrdə videogörüntüləri mövcuddur. X.Əhmədovun bir müddət əvvəl psixoloji problemləri olan əmisinin evini əlindən alaraq, onu küçəyə atdığı da deyilir.

## Bakıda dəhşət: ata uşaqlarını bıçaqlayıb intihar etdi

**Bakının Xəzər rayonunda ata iki oğlunu bıçaqlayaraq onlardan birini öldürüb. Hadisə Binə qəsəbəsində qeydə alınıb.**

1974-cü il təvəllüdlü Rza Eyyubov əvvəlcə oğlu 2014-cü il təvəllüdlü Əli Eyyubova çoxsaylı bıçaq xəsarəti vurub. Ata daha sonra 4 yaşlı oğlu Teymur Eyyubova çoxsaylı bıçaq zərbəsi vurub. 10 yaşlı Əli hadisə yerində ölüb.

Ata bunu gördükdən sonra özünü bıçaqlayaraq öldürüb. 4 yaşlı Teymur Eyyubov Sabunçu Tibb Mərkəzinə çatdırılıb. Həkimlər onu cərrahi əməliyyat ediblər. Vəziyyəti orta ağır kimi qiymətləndirilir.

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.4, 120.2.9, 29, 120.2.4, 29, 120.2.9 (xüsusi amansızlıqla və köməksiz vəziyyətdə qəsdən adam öldürmə və öldürməyə cəhd) və digər maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

## Qıza sataşana 3 sutka cəza, qızın özünə isə cərimə kəsdilər

**Özbəkistanda seksual motivli sataşmaya cavab olaraq kişiyə orta barmağını göstərən 19 yaşlı qız cəzalandırılıb.**

Musavat.com 24 kg saytına istinadla xəbər verir ki, iyunun 27-də 19 yaşlı qız rəfiqəsi ilə yolu keçərkən onların yolunu "Matiz" markalı avtomobilə 40 yaşlı Kuşmurod Bobomurodov kəsib. Kuşmurod israrla qızları maşınına minməyə dəvət edib. Amma qızlar dəfələrlə ondan imtina ediblər.

Lakin kişi buna məhəl qoymayıb, təklifini təkrarlayıb. Sonra qızlardan biri dözməyib, ABŞ və Avropada yaşayan qadınların bəlli situasiyalarda etdiyi hərəkəti edib, kişiyə orta barmağını göstərib.

2024-cü il iyulun 10-da Çilanzar Rayon Məhkəməsi Bobomurodovun "Seksual qısnama" maddəsi ilə təqsirli bilinməsi barədə qərar çıxarıb. Həmin şəxs üç sutkalıq inzibati həbs alıb. Lakin məhkəmə cinayətkara orta barmağını göstərən qızı da "Xırda xuliqanlıq" maddəsi ilə təqsirli bilib və onu 1 milyon 20 min sum məbləğində cərimələyib.

## Azərbaycan polisi əməliyyat keçirdi: saxlanılanlar var




**Göyçayda polis əməkdaşları tərəfindən narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan şəxslərə qarşı əməliyyat keçirilib.**

DİN-in mətbuat xidmətinin Şəki regional qrupundan Musavat.com-a verilən məlumata görə, tədbirlərlə Aydın Zeynalov saxlanılıb. Onun yaşadığı evin həyətyanı sahəsinə baxış zamanı 24 ədəd çətənə bitkisi və marixuana aşkar olunub. Keçirilən digər tədbir zamanı isə əvvəllər dəfələrlə məhkum olunmuş 53 yaşlı Mirkazım Hüseynov saxlanılıb. Ona məxsus həyətyanı sahədən çətənə kolları aşkarlanıb.

Saxlanılan şəxslər narkotik tərkibli bitkiləri bir neçə ay əvvəl əkdiklərini və aqrotexniki qulluq göstərdiklərini bildiriblər.

Faktla bağlı cinayət işləri başlanılıb, məhkəmənin qərarı ilə hər iki şəxs barəsində həbs-qətimkan tədbiri seçilib. Araşdırmalar davam etdirilir.

**Sentyabrın 1-də Azərbaycan Milli Məclisinə növbədənkənar seçkilərdə iştirak edən şəxslərin namizədliyinin rəsmi qeydə alınması üçün zəruri olan seçki sənədlərinin, minimum 450 seçici imzasının müvafiq dairə seçki komissiyalarına təqdim edilməsi prosesi avqustun 2-si 18:00-da yekunlaşacaq. Avqustun 9-da isə qeydə alınma prosesi başa çatacaq və həmin gündən təşviqat kampaniyası start götürəcək.**



# Azərbaycan AŞ PA-ya dəvət göndərmədi

## Namizədlərin qeydə alınması üçün son tarix...

Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyası isə Daxili İşlər Nazirliyi ilə birgə "Polis əməkdaşları üçün yaddaş kitabçası" hazırlayıb. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən Musavat.com-a verilən xəbərə görə, qurumlararası əməkdaşlıq çərçivəsində gerçəkləşdirilən layihə Milli Məclisə seçkilərdə polis əməkdaşlarının xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi və məlumatlılığının artırılmasına hədəflənib.

Nəşrdə Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi dövründə, seçkiqabağı təşviqat mərhələsində, səsvermə günü, habelə rəsmi seçki sənədlərinin daşınması və mühafizə olunması proseslərində polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələri, xidməti vəzifələrinə uyğun həyata keçirəcəyi tədbirlər ətraflı izah olunub. Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi, "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi normativ xarakterli sənədlər əsasında tərtib olunan kitabça polis əməkdaşlarının istifadəsi üçün nəzərdə tutulub.

"Polis əməkdaşları üçün yaddaş kitabçası" Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsində (www.msk.gov.az) də yerləşdirilib.

Bu arada məlumat yayılıb ki, Azərbaycan sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkiləri müşahidə etmək üçün Avropa Şurası Parlament Assambleyasına (AŞ PA) dəvət göndərməyib.

Bu barədə "Report"a diplomatik mənbə məlumat verib. Bildirilib ki, buna əsas səbəb Avropa Şurası və onun Parlament Assambleyasının artıq neçə ildir Azərbaycana qarşı qərəzli və ikili standartlara əsaslanan siyasət yürütməsidir. Mənbə onu da diqqətə çatdırıb ki, AŞ PA müşahidəçi missiyasının seçkilərdə iştirakı yalnız Azərbaycan nümayəndə heyətinin mandatının tanınmasından sonra müzakirə oluna bilər.

Xatırladaq ki, bu il yanvarın 24-də Azərbaycan nümayəndə heyətinin AŞ PA-dakı səsvermə hüququ məhdudlaşdırılıb və səlahiyyətləri sual altına alınıb. Azərbaycan nümayəndə heyəti öz növbəsində bu qərardan öncə qurumda mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# "Viza liberallaşması Ermənistana bu bəlanı vəd edir"

## Ekspert: "Avropada əhali qocalır, onun gənc, xristian miqranlarla əvəzlənməsinə ehtiyac duyulur..."



**"Avropa ilə Ermənistan arasında viza liberallaşması prosesinin Ermənistana hər hansı fayda verə biləcəyini gözləmirəm. Çox güman ki, danışıqlar prosesinin Ermənistana fayda verməsi ilə yaxından-uzaqdan əlaqəsi yoxdur".**

Bu fikirləri Musavat.com-a **siyasi şərhçi Elçin Mirzəbəyli** bildirib.

Rəsmi statistikaya diqqət çəkən ekspert qeyd edib ki, son 3 ildə Ermənistanı 136 min nəfər tərk edib: "Söhbət Ermənistan ərazisində yaşayan və ölkəni birdəfəlik tərk etdiyi təsdiqlənmiş şəxslərdən gedir. Nəzərə alsaq ki, Ermənistandakı demoqrafik vəziyyət kifayət qədər acınacaqlıdır, rəqəmin artacağı gözlənilir. Əgər liberallaşma prosesi baş tutarsa, Ermənistanda qocalardan və Nikol Paşinyanın ətrafından başqa heç kim qalmayacaq.

Analoji addım Gürcüstanla bağlı da atılmışdı. Son 10 il ərzində Gürcüstanı 957 min insanın tərk etdiyi bildirilir. Bu siyahı günü-gündən uzanır. Ölkəni birdəfəlik tərk edənlərin sayı 285 min nəfərdir. Bu isə Gürcüstan üçün çox böyük rəqəmdir. Təkcə son bir il ərzində Gürcüstanı tərk edənlərin sayı 168 min nəfərə yaxındır. Bu isə əhalinin 2 faizi deməkdir. Proseslər onu sübut edir ki, Avropaya ucuz işçi qüvvəsi lazımdır".

**Səbəblərə gəlincə, Elçin Mirzəbəyli hesab edir ki, Gürcüstan, Ermənistan kimi ölkələrə üstünlük verilməsinin əsas səbəblərindən biri ucuz işçi qüvvəsinin xristianlardan ibarət olması istəyi ilə bağlıdır:** "Avropada sağçıların mövqelərinin güclənməsi, onların bir hissəsinin hakimiyyətə sahiblənməsi müsəlman əsilli miqrantlara qarşı daha sərt tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Digər tərəfdən, əhalinin sayı azalır. Demoqrafik vəziyyət ürəkaçan deyil. Avropada əhali qocalır. Onun gənc, xristian əhali ilə əvəzlənməsinə ehtiyac duyulur. Yürüdülən siyasətin təməlində də bu amil dayanır.

Mən şübhə etmirəm ki, proses Gürcüstandan fərqli olaraq Ermənistanda daha sürətlə həyata keçiriləcək. Burada bir qədər etno-psixoloji faktorlar da rol oynayır, çünki ermənilər heç bir torpağa bağlı deyillər. Bu baxımdan düşünürəm ki, viza liberallaşması prosesindən sonra Ermənistanda nəinki işçi qüvvəsi, hətta dövlət orqanlarında təmsil olunmağa da kimsə qalmayacaq".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# Əhməd Əhmədovun məhkəməsində fasilə yarandı - səbəb



**Xətai rayonunda ailəsinin 5 üzvünü qətlə yetirməkdə təqsirli bilinən 1999-cu il təvəllüdlü Əhməd Əhmədovun cinayət işi üzrə məhkəmə prosesi dünən davam etdirilib. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Səbinə Məmmədzadənin sədrlik etdiyi prosesdə Əhməd Əhmədovun ibtidai istintaq zamanı verdiyi ifadəsi elan edilməli idi.**

Zala gələn hakimlər prosesin açıq elan olunduğunu bəyan ediblər. Hakim Əhməd Əhmədovun ittiham olunduğu maddələri sadalayıb. Daha sonra proses iştirakçıları dəqiqləşdirilib. Məlum olub ki, təqsirləndirilən şəxsin vəkili, prokuror, Əhməd Əhmədovun qanuni nümayəndəsi, zərərçəkmiş şəxslərin hüquqi varisləri prosesdə iştirak edirlər. Əhməd Əhmədov isə prosesə gətirilməyib. Hakim deyib ki, məhkəmədən asılı olmayan səbəblərə görə o, prosesə gətirilməyib. Bu səbəbdən proses təxirə salınıb.

Ölkədə geniş rezonans doğuran cinayəti Əhməd Əhmədov bu il fevralın 13-də törədib. O, 1972-ci il təvəllüdlü atası Mehman Əhmədovu, 1977-ci il təvəllüdlü anası Pikə Əhmədovanı, 1997-ci il təvəllüdlü bacısı Elmira Əhmədovanı, 2021-ci il təvəllüdlü azyaşlı bacısı qızı Ülviyyə Niftəliyevanı və 2015-ci il təvəllüdlü azyaşlı qardaşı Məhəmməd Əhmədovu qətlə yetirib.

Prokurorluqdan məhkəməyə göndərilən qərara görə, Əhməd Əhmədovun uşaqlıqdan psixoloji durumu normal olmayıb, şizofreniyadan əziyyət çəkib. Orta məktəbdə 9-cu sinfə kimi təhsil alan Əhmədov hərbi xidmətə yararsız hesab edilib. Yaxınlarının köməyi ilə Moskva şəhərində universitetlərdən birində ali təhsil alıb. Əhməd Əhmədov istintaqa ifadəsində ailə üzvlərini öldürməsini ailədə onu heç kimin saymaması, ona diqqət göstərməməsi ilə izah edib. Ailəsi ona ayrıca ev alıb, həmin evdə tək yaşayıb. İstintaq sənədlərinə görə, o, tək yaşadığı üçün ailə üzvləri ilə münasibətləri normal olmayıb. Amma hadisə günü atası Mehman Əhmədov onu öz evinə gətirib. Əhməd atası səhər yeməyi hazırlayan vaxt qəfil onu öldürmək fikrinə düşüb. Qatil oğul evdə atasını tək olanda öldürüb. Atası öləndən sonra onun avtomobilinin açarını götürərək evdən çıxıb və maşına minib birbaşa bacısı Elmiranın evinə gedib. Elmira qapını açan kimi Əhməd əlindəki bıçaqla onu da öldürüb. Əhməd azyaşlı bacısı qızını öldürmək istəyərkən əlindəki bıçaq qırılıb. Buna baxmayaraq, evin mətbəxindən başqa bıçaq götürərək uşağı da öldürüb. O, bıçaqları meyitlərin yanına atıb, avtomobillə atasını öldürdüyü evə qayıdıb. Əhməd evin həyətindəki marketdən siqaret almaq istəsə də, satıcı əlinin qanlı olduğunu görüb ona siqaret verməyib.

Marketdən çıxdıqdan sonra anası Pikə və qardaşı Məhəmmədin evə gəldiyini görüb. Yaxınlıqdakı mağazadan 20 manata balta alan Əhməd ana və qardaşını həmin balta ilə öldürüb. İstintaq materiallarına görə, balta ilə əvvəl anasını, sonra qardaşını öldürüb. İşini bitirdikdən sonra baltanı evin şkafında gizlədib.

Qeyd olunub ki, dəhşətli qətllərin törədildiyi ərazidə polis əməkdaşları olub. Orada olan Əhməd özünü şübhəli aparması nəticəsində saxlanılıb. Qətllərin üstü açılıb.

Əhmədin əvvəllər cinayət törətməsi ilə bağlı istintaq heç bir məlumat əldə etməyib. O, qısa müddət atasının aldığı avtomobillə taksi fəaliyyəti ilə məşğul olub. Ondan əvvəl isə barmen və ofisiant işləyib. İstintaq zamanı təyin olunmuş kompleks məhkəmə psixiatrik və psixoloji ekspertizaların rəylərinə əsasən, təqsirləndirilən şəxs Əhməd Əhmədovun hadisə baş verən zaman anlaqsız vəziyyətdə olmasına, həmçinin cəmiyyət üçün təhlükəli olmasına əsaslı şübhələr müəyyən edildiyindən onun barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə dair icraat başlanıb.

Barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib və Səhiyyə Nazirliyinin Respublika Psixiatriya Xəstəxanası publik hüquqi şəxsinə yerləşdirilib.

Əhməd Əhmədova qarşı Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi öldürmə) və 120.2.9-cu (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə) maddələri ilə yekun ittiham elan olunub.

Proses sentyabrın 10-na kimi təxirə salınıb.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 128 (8501) 24 iyul 2024

# İşğalçıdan təzminat tələbimiz... sülh sənədindən sonraya qalır?

## Ekspert iddia prosesinin gedişi haqda: "Arbitraj prosesi çərçivəsində Azərbaycan Ermənistandan kompensasiya ödəməyi tələb edir"



**İşğal dövründə Ermənistanın ölkəmizin ekologiyasına, fauna və florasına çox böyük ziyanlar vurduğu, ərazimizdəki təbii resurslarımızı amansızcasına talayıb, sümürdüyü məlumdur. Erməni vandallar torpaqlarımızda həmçinin digər çoxsaylı qanunsuz əməllər törədiblər.**

Şübhə yox ki, bütün bu cinayətlərin qarşılığı hansısa şəkildə ödənməlidir. Bəs hazırda bu istiqamətdə işlər nə yerdədir? Prosesə beynəlxalq səviyyəli hüquqşünas-vəkillər də cəlb olunubmu?

Bu və digər suallarımıza **hüquqşünas Polad Mehdiyev** cavab verdi.

"Yeni Müsavat"a açıqlamasında ekspert öncə bildirdi ki, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi digər fəsadlarla yanaşı, ölkəmizdə ətraf mühitə də ciddi fəsadlar vurub: "İşğal edilmiş ərazilərdə ermənilər tərəfindən meşələrin qırılması, qəsdən yanğın törədilməsi, flora və fauna növlərinin məhv edilməsi, o cümlədən çayların çirklənməsi, münbit torpaqların məhv edilməsi, təbii sərvətlərimizin qaydalara uyğun olmayan istismarı Azərbaycana bərpası çətin, yəni bərpaolunmayan ziyan vurub. Törədilən cinayətlər bölgədəki yaşayış mühitində ciddi fəsadlar yaradıb, təbii ehtiyatların tükənməsinə, biomüxtəlifliyin məhv olmasına gətirib çıxarıb. İşğal zamanı təbiət qoruqlarında qanunsuz tikinti işləri aparılıb, hətta mədənçilik fəaliyyəti olub. Nəticədə Azərbaycanda mövcud olan 500-dən çox vəhşi heyvan növü məhv olub, ya da məhv olma təhlükəsi ilə üzləşib.

Eyni zamanda işğal altındakı ərazilərdə çaylar, xüsusilə transsərhəd çayları həddən artıq çirklənib. Həmin çaylara Ermənistan tərəfindən müxtəlif tullantılar atılır. Çaylar zibillənir, kimyəvi maddələr, ağır metallarla, mədənlərin istismarı nəticəsində yığılan çirkablarla çirkləndirilib. Ermənilərin törətdiyi əməllər Azərbaycan tərəfindən beynəlxalq müstəvidə, Haaqada, Arbitraj məhkəməsində mübahisələndirilib. Haaqa Sülh Sarayında "Avropanın Vəhşi Təbiəti və Təbii Yaşayış Yerlərinin Mühafizəsi üzrə Bern Konvensiyası"na əsasən dövlətlərarası arbitraj çərçivəsində Azərbaycanın iddiası üzrə ilk rəsmi məhkəmə prosesi bu ilin aprel ayında keçirilib. Bu, Azərbaycan tərəfindən qaldırılan ilk dövlətlərarası arbitraj prosesidir.

Tarixi arbitraj işinin məqsədi 30 il ərzində beynəlxalq səviyyədə tanınan Azərbaycan ərazilərinin qanunsuz işğalı dövründə ətraf mühitin və biomüxtəlifliyin geniş miqyasda məhv edilməsinə görə Ermənistan dövlətini məsuliyyətə cəlb etməkdir. Arbitraj prosesi çərçivəsində Azərbaycan Ermənistandan "Bern Konvensiyası" üzrə hazırda davam edən bütün pozuntulara son qoymağı və işğal altında olmuş ərazilərdə ətraf mühitin məhvinə görə kompensasiya ödəməyi tələb edir".

Xatırladaq ki, hələ 2016-cı ildə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupu tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin materialları əsasında hesabat xarakterli kitab nəşr olunub. Beynəlxalq standartlara uyğun metodoloji əsaslara istinadən ərsəyə gələn hesabatın hazırlanmasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri, İşçi Qrupun üzvləri ilə birgə qiymətləndirmə və konsaltinq üzrə ekspertlər də iştirak edib. Hesabatda bilavasitə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "İşğalda olan ərazilərdə ətraf mühitə və təbii sərvətlərə dağıdıcı təsirini müəyyənləşdirən Operativ Mərkəzin bir neçə il ərzində topladığı araşdırma materiallarından istifadə olunub.

Hesabatda ətraf mühit, təbii sərvətlər, onların qiymətləndirilməsi üsulları, beynəlxalq hüquqda vurulmuş zərərlərin ödənilməsinin hüquqi şərtləri, zərər və itkilərin iqtisadi qiymətləndirilməsinin metodoloji əsasları haqqında aparılan araşdırmalar dəyən zərərin obyektiv, elmi əsaslarla qiymətləndirilməsinə dəlalət edir. Yeni 6 əsas sahə - faydalı qazıntı yataqlarının talanı, biomüxtəlifliyin, meşələrin məhv edilməsi, torpaqların sıradan çıxarılması, istifadədən məhrum olunması, su, su anbarları və ətraf mühitin çirkləndirilməsi üzrə ekoloji zərərlər, o cümlədən əhaliyə dəymiş mənəvi-ekoloji zərərlər qiymətləndirilib, 22 illik işğal dövrünü əhatə edib və ümumilikdə Azərbaycana dəyən ziyan 265 milyard 281 milyon 198 min 203 ABŞ dolları civarında hesablanıb. Lakin indiki mərhələdə dəqiq rəqəmlər hələ ki səsləndirilmir.

**Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

---

# Ali Baş Komandanın Şuşa mesajları - dünya ondan danışır...

## Deputat: "Azərbaycanda keçirilən hər bir beynəlxalq əhəmiyyətli tədbir ölkəmizin sabitləşdirici, birləşdirici aktor roluna işıq salır"




**Şuşada keçirilən II Şuşa Qlobal Media Forumu başa çatdı. Bu tədbir dünya gündəminin də əsas müzakirə mövzularından birinə çevrilib.**

Forumun açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda çıxışı zamanı səsləndirdiyi fikirlər diqqətləri xüsusilə çəkdi. Azərbaycan və dünya mətbuatında Ali Baş Komandanın Amerikada bu ilin noyabrında keçiriləcək seçkilər, eləcə də Fransa barədə dediklərinin ətrafında geniş müzakirələr açılıb.

**VI çağırış Milli Məclisin deputatı Kamran Bayramov "Yeni Müsavat"a açıqlamasında Şuşa Forumunun əhəmiyyətindən danışdı:** "Bu gün informasiya yayımının və kommunikasiya vasitələrinin növlərinin sürətlə dəyişdiyi müasir dövrdə məlumatlara əlçatanlıq əhəmiyyətli dərəcədə asanlaşıb. Dünya miqyasında saxta xəbərlərin bilərəkdən və ya bilməyərəkdən geniş şəkildə yayılması, eləcə də belə məlumatların müxtəlif ictimai proseslərə mənfi təsiri son illərdə xüsusilə nəzərə çarpmaqdadır. Forumda dövlətimizin başçısı İlham Əliyev belə bir çağırış etdi ki, məlumatın həqiqətə söykənməsi ən önəmli məsələdir. Yayılan informasiya heç bir halda birtərəfli və ya qərəzli olmamalıdır. 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun nümayəndələrinin qatıldığı forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayır. Forum istər regionda, istər dünyada, istərsə də ayrı-ayrı ölkələrdə baş verən hadisələr barədə daha dolğun məlumatların əldə edilməsinə, obyektiv, qərəzsiz işıqlandırılmasına yol açacaq.

**Prezident İlham Əliyev ötən il keçirilən forumda bir mühüm məqamı tədbir iştirakçılarının diqqətinə çatdırmışdı. Cənab Prezident demişdi:** "2022-ci ildə Şuşada Azərbaycanın media nümayəndələrinin birinci forumu keçirilərkən mən o tədbirdə iştirak etmədim. Prezident Administrasiyasına göstəriş verdim ki, gələn dəfə bu tədbiri beynəlxalq forum səviyyəsində təşkil etmək lazımdır. Bu, artıq baş verir və mən qərara aldım ki, burada iştirak edim. Bu tədbirdə çıxışçı kimi təqdim edilmişdim. Ancaq mən hesab etdim ki, burada uzun-uzadı çıxış etməyə ehtiyac yoxdur. Hesab etdim ki, bu sorğu-sual daha maraqlı olar"".

**Deputat dövlət başçısının forumun müntəzəm olaraq keçirilməsi barədə tapşırıq verməsini də diqqətə çatdırıb:** "Dövlətimizin başçısı sözügedən forumdakı çıxışında dünyanın ikili standartlara əsaslanan siyasətindən bəhs edərək bildirdi ki, natamam, qeyri-dəqiq və manipulyasiya edilmiş hesabatlar Qərbdən qaynaqlanır. Cənab Prezident bu fikirləri xüsusi vurğuladı: "Biz hazırkı ABŞ Administrasiyasının fəaliyyətindən, hərəkətlərindən dərindən məyus olmuşuq. Bu, birtərəfli yanaşmadır. Qafqazda ayırıcı xətlərin çəkilməsi olduqca təəccüblüdür. Bildiyiniz kimi, ABŞ dövlət katibi, Avropa Komissiyasının Prezidenti və onların bir növ xarici işlər naziri hesab edilən ali komissarı Brüsseldə görüşdülər. Bu görüşdə onlar Ermənistanın hərbi baxımdan maliyyələşdirilməsi məsələsini müzakirə etdilər. Onlar hərbi sahədə maliyyə ayırmaq məqsədini güdürlər və bu, bizim üçün tamamilə qəbuledilməzdir. Biz bəzən açıq, ictimai şəkildə, bəzən də pərdəarxası mesajlarımızı veririk ki, Azərbaycanın maraqları Cənubi Qafqazda təmin edilməlidir. Kimsə bizim maraqlarımızı görməzdən gəlməyə çalışsa, əlbəttə ki, onlar yanılacaqlar və uğursuzluğa düçar olacaqlar. Biz əlbəttə ki, ABŞ-da prezident seçkilərinin nəticələrindən asılı olmayaraq, mən səmimi deyirəm ki, anti-Azərbaycan fəaliyyətin bir hissəsi prezident seçkisi ilə bağlıdır. Onlar ermənilərin səslərini qazanmaq istəyirlər. Ona görə də, zənnimcə, məqsəd məhz, elə bundan ibarət idi. Mən tamamilə obyektiv olmağa çalışıram. Ümid edirəm ki, seçkidən sonra ABŞ-da və Avropada Azərbaycan haqqında, bizim potensialımız, rolumuz haqqında daha yaxşı anlayış olsun. Yəni biz şou qurmuruq, öyünmürük. Biz bilirik potensialımız nədən ibarətdir və bunu bizimlə əməkdaşlıq edən hər kəs bilir. Bu potensialdan xoş niyyət, xoş məram, konsolidasiya, tərəfdaşlıq üçün istifadə edilməlidir və biz demonizasiya qurbanı olmamalıyıq"".

Azərbaycanda keçirilən hər bir beynəlxalq əhəmiyyətli tədbir Azərbaycanın sabitləşdirici, birləşdirici aktor roluna işıq salır. Prezident İlham Əliyevin II Şuşa Qlobal Media Forumundakı çıxışı zamanı səsləndirdiyi fikirlər, beynəlxalq ekspert və jurnalistlərin sualları ilə bağlı şərhləri ABŞ mediasında da işıqlandırılıb. Ölkənin nüfuzlu "Bloomberg" nəşri ölkə başçısının Rusiyanın Ukrayna ərazisindən Avropaya qaz nəqlini 2025-ci ildə dayandıracağı və Azərbaycan qazının Avropaya çatdırılması ilə bağlı fikirləri barədə yazıb. Həmçinin Prezident İlham Əliyevin Fransanın müstəmləkə altında saxladığı ərazilərlə bağlı fikirləri də ABŞ mediasında geniş dərc olunub. "Voice of America", "Gazette", "US News", "Denver Gazette" kimi nəşrlərdə dərc olunmuş yazılarda Prezident İlham Əliyevin Fransanın Azərbaycanın daxili işlərinə, Ermənistanla münasibətlərinə müdaxilə etməkdə ittiham etməsi vurğulanıb. Sözügedən saytlarda həmçinin Prezident İlham Əliyevin Fransanın hələ də müstəmləkə altında saxladığı ərazilər və Azərbaycanın, keçmişin bu iyrənc qalığından özlərini azad edə bilmələri üçün onlara kömək edəcəyinə dair fikirləri yer alıb".

**Müsahibimiz Amerikadakı prezident seçkisinə də toxunub:** "ABŞ-da noyabrda keçiriləcək prezident seçkisi ərəfəsi bu ölkədə baş verənlər Azərbaycanda da diqqətlə izlənilir. Təsadüfi deyil ki, II Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevə bu mövzuda da suallar verilib. Ölkə başçısı İlham Əliyev deyib ki, siyasi mədəniyyət anlayışı Tramp və ya Bayden arasında seçim sualına birbaşa cavab verməyə imkan yaratmır: "Qərarı Amerika xalqı verəcək. Bu, onların prezidentidir. Lakin eyni zamanda bu, bütün dünya üçün xüsusi əhəmiyyətə malikdir. Çünki bir çox xalqların və ölkələrin taleyi böyük dərəcədə Birləşmiş Ştatların birinci şəxsinin verəcəyi qərarlardan asılı olacaq. Mənim fikrimcə, Prezident Trampın hələ də davam edən kampaniya zamanı səsləndirdiyi mühüm tezislərdən biri də odur ki, onun vaxtında heç bir müharibə olmayacaq. Onun hakimiyyəti dövründə Amerika müharibələrə başlamadı, Buna yəqin ki, böyük hörmətlə yanaşmağa dəyər.

Dövlətimizin başçısı həmçinin onu da qeyd edib ki, bizim ABŞ-la münasibətlərimiz demək olar ki, hər zaman sabit olub. Əlbəttə ki, müəyyən enişli-yoxuşlu dövrlər olub və o da bizim günahımız deyildi. Çünki bəzən Azərbaycanla bağlı müəyyən şişirdilmiş gözləntilər olub. Digər tərəfdən, onlar bizim siyasi həyatımıza müdaxilə etməyə çalışıblar, siyasi müxalifəti maliyyələşdirmək cəhdləri ediblər. Bu cəhdlər birbaşa və ya müəyyən QHT-lər vasitəsilə olub. Bildiyiniz kimi, Azərbaycan balaca ölkədir və Bakıda hər kəs hər şeyi bilir..."

**Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 128 (8501) 24 iyul 2024

# Sülhə xain zərbə: AB ilk dəfə Ermənistana silah üçün pul ayırdı, sərhəddə isə...

## Qərbin Cənubi Qafqazda ikinci Ukrayna yaratmaq cəhdi; "Bizi yenə müharibəyə təhrik edərlərsə, 7 günə İrəvanda olacağıq..."

**Xəbər verildiyi kimi, iyulun 21-də Ermənistan Kəlbəcər istiqamətindən Azərbaycanın mövqelərini atəşə tutan zamanı yeni silahlardan istifadə edib. Məlumatlara görə, atəş ABŞ, Fransa və Avropa Birliyini (AB) təmsil edən hərbi müşavirlərin iştirakı, daha doğrusu, ortaqlığı ilə həyata keçirilib.**

Bildirilir ki, AB missiyası bu yaxınlarda Ermənistana verilmiş öldürücü silahları döyüş şəraitində sınaqdan keçirmək qərarına gəlib. Lakin erməni revanşistlərin budəfəki Kəlbəcər təxribatı çox genişmiqyaslı və dramatik nəticələr verə bilər. Üstəlik, Ermənistan son bir ildə ilk dəfə ağır silahlardan istifadə edib. Amma ən vacib və ən təhlükəlisi başqadır. Mötəbər mənbələrdən əldə edilən məlumata görə, Azərbaycan mövqelərinin atəşə tutulması ABŞ, Fransa və AB-ni təmsil edən hərbi müşavirlərin iştirakı, daha doğrusu, ortaqlığı ilə həyata keçirilib. Belə ki, onlar bu yaxınlarda Ermənistana verilmiş öldürücü silahları döyüş şəraitində sınaqdan keçirmək qərarına gəliblər.

Bu, sözsüz ki, AB-nin monitorinq missiyasının ifşasıdır. Eyni zamanda sülhə, sülh danışıqlarına növbəti xain zərbədir. Bu azmış kimi, iyulun 22-də Avropa İttifaqı Ermənistana ilk dəfə olaraq silah üçün pul ayırıb - 10 milyon avro. Hərbi köməyi Avropa Sülh Fondu maliyyələşdirəcək. Rəsmi Bakının olaya sərt reaksiyası isə özünü çox gözlətməyib.

"Fransa tərəfindən Ermənistanın "Bastion" çoxməqsədli zirehli avtomobilləri və "Sezar" özüyeriyən artilleriya qurğuları ilə təchiz edilməsi istiqamətdə atılan addımlardan sonra, Avropa İttifaqının Ermənistana hərbi yardım göndərməsi qərarı olduqca yanlış və təhlükəli addımdır və regionda gərginliyin artmasına xidmət edir. Avropa İttifaqı tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır, bölgədə "bölücü xətlər" yaratmaq siyasətinin təzahürüdür".

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə deyib. XİN rəsmisi Ermənistana sözügedən hərbi yardımın və belə yardımın gələcəkdə artmasına çağırışların Azərbaycan ərazilərinin bir hissəsini 30 ilə yaxın dövrdə işğal altında saxlayan, hazırda ərazi bütövlüyümüzə qarşı iddialardan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətə xidmət edəcəyini söyləyib. "Avropa İttifaqı Şurası tərəfindən verilmiş bu qərara qətiyyətlə etiraz edir, göstəriləcək yardım barədə şəffaf şəkildə məlumatın açıqlanacağını gözləyirik. Avropa İttifaqı bölgədə silahlanmaya və hərbiləşmə siyasətinə töhfə verən bu kimi addımlara son qoymalı, bölgədə sülh və əməkdaşlığın alternativinin olmadığını anlamalıdır. Əks təqdirdə, Ermənistanın sabitliyi pozan hər hansı mümkün təxribatına görə Avropa İttifaqı da məsuliyyəti bölüşəcək", - Hacızadə əlavə edib.




Bəs Ermənistanı və havadarları nəyə nail olmaq istəyir? Kapitulyant ölkə kimə qarşı silahlandırılır?

**Deputat Azər Badamov "Yeni Müsavat"a bildirdi ki, Qərb Cənubi Qafqazda ikinci Ukrayna yaratmaq istəyir**: "Qərb hər vasitə ilə Cənubi Qafqaz regionunu yenidən münaqişə ocağına çevirməyə çalışır. Bu baxımdan Ermənistana göndərilmiş AB, ABŞ və Fransanı təmsil edən hərbi müşavirlərin qarşısında müəyyən vəzifələr qoyulub. Bu vəzifələr Azərbaycanı günahkar çıxartmaq üçün birtərəfli qaydada Azərbaycanla sərhəddə gərginliyin yaradılmasına nail olmaqdır. Fransanın Ermənistanı Sezar özüyeriyən qoubitsalar və "Biostion" hərbi avtomobillərlə silahlandırması, ABŞ hərbiçiləri tərəfindən Ermənistan ordusuna təlimlərin keçilməsi və nəhayət, 22 iyulda Ermənistana silahların alınması üçün 10 milyon dollar pulun ayrılması hazırlanmış planın tərkib hissəsidir. Maraqlısı odur ki, Qərbin müşahidəçi missiyasının nəzarəti altında 21 iyulda atəşkəs pozulur və 22 iyulda Avropa İttifaqı Ermənistana 10 milyon dollar ayırır. Təbii ki, bu məsələlər arasında bir bağlılığın olduğunu hər kəs görür. Yəni Ermənistan Azərbaycanla sərhəddə gərginlik yaradacağı təqdirdə AB Ermənistana hərbi dəstək göstərir. Özü də həmin dəstək AB Sülh Fondu tərəfindən göndərilir.

Sual olunur ki, Ermənistana silah almaq üçün maddi dəstək verən bu fond hansı sülhdən danışa bilər? Əksinə, Sülh Fondu adı bu təşkilatın maskasıdır. Sadəcə, bu maska altında onlar yeni münaqişə zonaları yaratmağa çalışırlar. Ermənistana hərbi yardımın göstərilməsi AB-nin heç də sülh niyyətindən irəli gəlmir. Birlik sözdə sülhün meydana gəlməsinə dəstək verməyə hazır olduğunu bildirsə də, hərəkətləri tamamilə deyilənlərin əksinədir.

Qərb çalışır ki, Cənubi Qafqazda ikinci Ukrayna yaratsın. Ermənistan isə bunu başa düşmür. Bu baxımdan Ermənistan silahlanaraq yenidən öz çirkin niyyətlərini reallaşdırmağa çalışarsa, onların taleyini Ukraynanın taleyi gözləyir. Onlar başa düşməlidirlər ki, Azərbaycan yerində dayanıb saymır. Biz də hərbi gücümüzü artırırıq və yenidən müharibə baş verərsə, Ermənistanı nə Fransa, nə də AB xilas edə bilməyəcək. 2020-ci ildə 44 gündə 10 min kvadrat kilometr ərazimizi işğaldan azad etmişdiksə, indi bizi yenidən müharibəyə təhrik edərlərsə, 7 gün ərzində İrəvanda olacağıq. Biz müharibə istəmirik. Amma bizi yenidən buna vadar edərlərsə, nəticəsi Ermənistan üçün çox ağır olacaq. Qərb isə Ermənistanda baş verən dəhşətləri görüb ancaq kənarda dayanaraq seyr etməklə kifayətlənəcək".

**Hərbi ekspert Səxavət Məmməd qeyd etdi ki, hazırda regionda siyasi gərginlik hökm sürür:** "Azərbaycanla Ermənistan arasında hər an sülh müqaviləsinin imzalanacağını gözləyənlər var. Hesab edirəm ki, iki ölkə arasında normallaşmanın baş verməsini istəməyən qüvvələr var və onlar buna mane olacaqlar. Açığı, yazılarımda da qeyd edirdim ki, tərəflər arasında qısa zamanda sülhün olması gözlənilən deyil. Əksinə, gərginliyin artması daha realdır. Ermənistanın baş naziri Nikol Paşinyanın bir aya sülh bağlamaq olar bəyanatı elə o səslənən vaxt da inandırıcı deyildi. Çünki Azərbaycanın konkret tələbi var - Ermənistan konstitusiyası dəyişdirilməlidir.

Azərbaycanın digər tələbləri isə ATƏT-in Minsk Qrupunun ləğv edilməsi və qərbi azərbaycanlıların öz torpaqlarına qayıtmasıdır. Hesab edirəm ki, hər iki tərəfin ən asan qəbul edəcəyi tələb ATƏT-in Minsk Qrupu ilə bağlıdır. Qərbi azərbaycanlıların qaytarılması isə Azərbaycan üçün həm də sığortadır. Yəni Ermənistan dövləti Qarabağa ermənilərin köçürülməsini tələb etsə, bu tələbə əməl etməli olacaqlar.

Digər tərəfdən, bu, Azərbaycanın strateji maraqlarından xəbər verir. Ermənistanın silahlandırılması prosesi davam edir. Bu, Fransa və Hindistan vasitəsilə həyata keçirilir. Bundan əlavə, Ermənistan ordusu ABŞ ordusu ilə ciddi şəkildə əməkdaşlıq edir. Hətta Ermənistan Müdafiə Nazirliyində ABŞ ordusunun nümayəndəsi olacaq. Bu o anlama gəlir ki, ordunun tərkibində ABŞ-dan olan təlimatçılar fəaliyyət göstərəcək. Yəni ABŞ və Fransa Ermənistanda nəinki siyasi, həm də hərbi cəhətdən möhkəmlənməkdədir. Bu, təkcə Azərbaycana qarşı yox, həm də region dövlətlərinə qarşı da ola bilər. Çünki Rusiya tərəfi açıq şəkildə bildirir ki, ABŞ Ermənistana qonşu dövlətlərin orduları barədə kəşfiyyat məlumatları toplamaqla məşğuldur.

Ermənistanı Rusiyadan qoparmağa çalışan Qərb Ermənistanı təkcə Azərbaycana qarşı yox, həm də Rusiyanın ehtimal olunan hərbi müdaxiləsinə qarşı müdafiə qabiliyyətinin artırılmasına çalışır. Ermənistanın öz gücü hesabına 2020-ci ilin sentyabr ayı səviyyəsinə gəlməsi qısa zamanda mümkün deyildi. Buna ancaq böyük güclərin dəstəyi ilə nail olmaq olardı. Hesab edirəm ki, Ermənistanın silahlandırılması Cənubi Qafqaza təhdid yaradır. Əgər regionda hərbi toqquşma baş verərsə, bu, Cənubi Qafqaz fəlakət gətirəcək. Ona görə də Azərbaycanla yanaşı, digər dövlətlər də bu məsələdə həssas davranmalıdır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Sərkisyan: "Paşinyan Bakının tələbini belə yerinə yetirir"

**"Ermənistanın baş naziri Nikol Paşinyan və onu dəstəkləyən siyasi qüvvələr qarşıdan gələn seçkilərə ciddi hazırlaşmağa başlayıb. Seçkilərin vaxtında və ya erkən olacağı hələ məlum deyil. Bu, xüsusilə Aram Sərkisyan, Tiqran Xzmalyan, Ovsep Xurşudyan və başqalarının təmsil olunduğu qərbyönümlülərə aiddir, onlar dünəndən qeyri-rəsmi seçki kampaniyasına başlayıblar və Avropa Birliyinə (AB) üzvlüklə bağlı referendum üçün parlamentə müraciət etmək məqsədilə 50 min vətəndaşın imzasını toplamağa başladıqlarını açıqlayıblar".**

Bu barədə Ermənistanın "Hraparak" qəzeti yazır (Teleqraf.com).

Nəşr bildirir ki, Paşinyan bir neçə gün əvvəl AB-yə üzvlüklə bağlı referenduma ehtiyacın olmadığını desə də, hakim komandada fikir dəyişməyə başlayıb. AB-yə inteqrasiya gündəmini irəli sürməkdə qərarlı olduğunu bəyan edən "Respublika" Partiyasının sədri Aram Sərkisyan söyləyib ki, əgər Fransa Prezidenti Emmanuel Makron, Almaniya Kansleri Olaf Şolz və digər liderlər 50 min Ermənistan vətəndaşının AB-yə getmək istədiyini görsələr, onların da fikirləri dəyişəcək və Ermənistanı daha etibarlı tərəfdaş hesab edəcəklər. Həmçinin onun fikrincə, Paşinyan referendumun keçirilməsi təklifini rədd etməyib.

"Ermənistan baş naziri birbaşa imtina etməyib, "yox" deməyib, amma "hə" də deməyib", - Sərkisyan vurğulayıb.

"Hraparak"a görə, qərbyönlü siyasi qüvvələr tərəfindən yenidən bu təşəbbüslə çıxış etmək hakimiyyətlə razılaşmanın nəticəsidir. Nəşr iddia edir ki, proses həm də yeni konstitusiyanın qəbulu və ya dəyişdirilməsi, Ermənistanın beynəlxalq təşkilatlara üzvlüyü və ölkə ərazisinin dəyişdirilməsi ilə bağlı məsələlərin referendum yolu ilə həllini nəzərdə tutur. Söhbət həm də Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarının Ermənistan konstitusiyasından çıxarılmasından gedir. Rəsmi Bakı bəyan edib ki, belə bir addım atılmadan sülh müqaviləsinin imzalanması mümkün deyil.

Nəşr qeyd edir ki, Aram Sərkisyan və tərəfdarları öz təşəbbüslərini son nöqtədə vətəndaş təşəbbüsü kateqoriyasında yerləşdirməyə çalışırlar. Yəni təşəbbüsün hakimiyyət və ya siyasi qüvvələrdən yox, Ermənistan cəmiyyətindən gəldiyini göstərirlər. Nəşr hesab edir ki, Nikol Paşinyan öz hakimiyyətini saxlamaq yolunu Rusiya yox, Qərbə üz tutmaqda görür. Yəni xarici siyasət kursu ilə bağlı artıq İrəvanda son qərar verilib.

Referendumun parlament seçkilərindən sonra keçiriləcəyi deyilir. Əgər qərarda dəyişiklik olmasa, seçkilər 2026-cı ilin iyununda keçiriləcək. Seçkilərdən bir il sonra isə referendumun baş tutacağı gözlənilir.

# Paşinyana tarixi dəvət: Bakıya gəlsə də, gəlməsə də uduşda Bakı olacaq

## Elçin Mirzəbəyli: "Onun COP29 çərçivəsində Azərbaycana gəlişi sülh müqaviləsinin imzalanmasını tezləşdirə bilər"



**Xəbər verildiyi kimi, Azərbaycan Ermənistanı COP29 iqlim sammitinə dəvət edib. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev II Qlobal Media Forumunda xarici jurnalistlərə bildirib ki, Bakı İrəvana rəsmi dəvət göndərib.**

"Muxtar Babayev (COP29-un prezidenti) Ermənistanın xarici işlər nazirinə dəvət məktubu göndərib", - köməkçi vurğulayıb.

H.Hacıyev qeyd edib ki, hər iki ölkənin rəsmi diplomatik münasibətləri olmadığı halda bu məktubun göndərilməsi Azərbaycanın xoşməramlı və inklüziv yanaşmasının nümunəsidir. O əlavə edib ki, COP29 qlobal səydir və həlledici danışıqlar "Ermənistan və Azərbaycanın hüdudlarından kənara çıxır".

"İndi Ermənistan hökumətinin qərar vermə vaxtıdır", - H.Hacıyev vurğulayıb.

Yada salaq ki, az öncə erməni mediası Nikol Paşinyanın payızda Bakıya gələ biləcəyini mümkün saymışdı. İddialara görə, o bunu sülh sənədi imzalanandan sonra edə və geri dönərkən "erməni əsirləri" gətirə bilər.

"Azərbaycan Ermənistanı noyabrda keçiriləcək COP29 İqlim sammitinə dəvət edib. Burada İrəvana sənəd imzalanması təklif oluna bilər".

Bunu erməni politoloq Suren Surenyantsa deyib.

O, Bakının COP29 təklifinin çox vacib addım olduğunu bildirib: "Baş nazir Nikol Paşinyan Bakıya səfər edəcəyi halda ona müvəqqəti sənədin imzalanması təklif oluna bilər. Bu, imic baxımından Bakı üçün çox mühüm addım olsa da, İrəvan üçün belə deyil".

O, baş nazirin Bakıya səfər qarşılığında şərt irəli sürməli olduğunu deyib. Bildirib ki, Paşinyan yalnız keçmiş qondarma rejimin həbsxanada olan cani-terrorçuları ilə geri qayıtmaq şərti qarşılığında Bakıya getməyə razılıq verməlidir.

Bəs Paşinyanın seçimi nə olacaq? Onun sülh sənədi imzalanmadan Azərbaycana gəlməsi mümkünmü? Yoxsa öz yerinə başqa adamı göndərəcək? Kimi?

İstənilən halda Bakıya gəlsə də, gəlməsə də uduşda Bakı olacaq! Çünki zaman Ermənistana işləmir...

**Politoloq Elçin Mirzəbəyli** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın Ermənistana COP29-da iştirak üçün dəvət göndərməsi xoş və sülhməramlı niyyətin təzahürüdür: "Nəzərə alsaq ki, Azərbaycanla Ermənistan arasında bugünə kimi sülh müqaviləsi imzalanmadan bir sıra razılaşmalar əldə olunub, həmçinin İrəvan COP29-un Azərbaycanda keçirilməsinin əleyhinə çıxış etməyib, o zaman Paşinyanın ölkəmizə keçirilən qlobal miqyaslı tədbirdə iştirak etməsində heç bir problem olmamalıdır. Amma söhbətin Ermənistandan getdiyini, həmçinin bu ölkənin Azərbaycan əleyhinə sistemli və davamlı qarayaxma kampaniyası aparan dairələrlə işbirliyində olduğunu, müstəqil xarici siyasət yürütmək iqtidarında olmadığını nəzərə alsaq, Ermənistan rəsmiləri COP29-da iştirak üçün ölkəmizə gəlməyə də bilərlər. Bunun üçün müxtəlif bəhanələr də gətirilə bilər. Yaxud məsələnin üzərindən sükutla keçməyə çalışa bilərlər. Düşünürəm ki, Nikol Paşinyanın Böyük Britaniyada, sözügedən ölkənin baş nazirinin təşəbbüsü ilə keçirilməsi nəzərdə tutulan görüşdən son anda imtina etməsi və bu imtinada rəsmi Parisin təlimatlarının rol oynadığı barədə yayılan məlumatlar Ermənistanın COP29-a qatılmayacağı ehtimalını da yaradır.

Ola bilsin ki, rəsmi İrəvan, hər zaman olduğu kimi, yayındırıcı manevrlərdən istifadə etsin və Azərbaycana, məsələn, ətraf mühitin mühafizəsi naziri Akop Simidyanı, yaxud nazirliyin hər hansı bir rəsmisini göndərsin. Lakin qeyd edim ki, baş nazir Paşinyanın COP29 çərçivəsində Azərbaycana gəlişi sülh müqaviləsinin imzalanmasını tezləşdirə və bütövlükdə Cənubi Qafqazda əməkdaşlığa töhfə verə bilər".

**Elçin Mirzəbəyli əlavə etdi ki, əslində bu, Ermənistan üçün böyük bir şansdır:** ""Çünki Azərbaycana və azərbaycanlılara qarşı uzun illər boyu işğal, etnik təmizləmə və digər ağır müharibə cinayətləri həyata keçirən Ermənistan əgər sülh istəyirsə, etimad mühiti yaratmaq üçün konstruktiv davranmalı və bu istiqamətdə real addımlar atmalıdır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Bəşər tarixinin müstəmləkə ləkəsi

## Kolonial siyasətdən əl çəkmək istəməyənlər var

**Əslində kolonializm siyasəti heç vaxt bağışlanması mümkün olmayan antibəşəri cinayətdir. Mahiyyəti etibarilə bu, genosid siyasətinə tən gələr.**

Bir güclü dövlətin donanma ilə okeana çıxaraq, 10-20, bəzən 30-40 min kilometr uzaqlardakı qitələrdə və ya adalarda yaşayan xalqları əsarət altına almalarının ardınca aborigenlərin kütləvi qətliamı, əsrlərlə davam edən istismarı, qul kimi alınıb-satılması hadisələri başqa fikrə yer qoymur.

Bəşər tarixi belə hadisələrlə doludur və izləri bu günə qədər də davam edir.

İyulun 20-də Şuşada keçirilən "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bu mövzuda da danışıb.

**Prezident deyib ki, Qoşulmama Hərəkatının bir çox üzvü keçmişdə kolonializmin qurbanı olub.** "Milyonlarla insan bunun qurbanı olmuşdur və bəzi ölkələr hələ də bundan əziyyət çəkir. Məsələn, Qəmər adaları, Mayot adası. Hələ də onlar kolonial idarəçilik altındadır. Biz bu ölkələrə kömək etmək istəyirik ki, keçmişin bu iyrənc qalığından özlərini azad edə bilsinlər".

Təəssüf ki, təkcə adıçəkilən ölkələr deyil, Yeni Kaledoniya, Polineziya, Fransa Qvineyası, Korsika kimi ölkələr hələ də Fransanın idarəçiliyi altındadır və bu məkanlarda milli-azadlıq hərəkatları zaman-zaman müstəqillik uğrunda mübarizəyə qalxsa da, mərkəzi dövlət zorakı yolla yerli xalqların oz müqəddəratını həll etməsinə imkan vermir.

Zatən, zorakılıq müstəmləkəçilik siyasətinin fitrətində var. Tarixçilər müstəmləkəçiliyi imperiyanın bir ölkəni, əyaləti əvvəlcə fiziki, daha sonra iqtisadi, siyasi və mədəni planda ələ keçirməsi və onun üzərində nəzarətini saxlaması kimi mürəkkəb bir proses hesab edirlər.

İmperiyalar çox vaxt kolonial siyasətlərinə işğal və ilhaq etdikləri ölkədə guya "sivilizasiya missiyası" həyata keçirmələri ilə bəraət qazandırırlar, müstəmləkədə yaşayan xalqlara dövlətçilik və həyat tərzi haqqında öz fikirlərini aşılayırlar. Çox zaman yerli xalqın mədəniyyəti məhv edilir, sıfırlanır, onlara imperiya mərkəzində yaşayan dominant xalqın mədəniyyəti sırınır, yerli xalqın ana dili unutdurulur.

Məsələn, hazırda Əlcəzair, Mərakeş, Qvadelupa, Qviana, Qvineya, Burundi, Vanuatu, Qabon, Haiti, Andorra, Valoniya, Benin, Burkina Faso, Kamerun, Fil Dişi Sahil, Mavritaniya, Mavrikiya, Madaqaskar, Yeni Kaledoniya, Konqo Respublikası, Reyunon, Seyşel adaları, Ruanda, Sen Bartelemi, Sen Martin, Sen Pyer və Mikelon, Seneqal, Toqo, Tunis, Uollis və Futuna, Çad, Ekvatorial Qvineya və başqa ölkələrin dövləti dili ya rəsmən fransız dilidir, ya fransızca bu dövlətlərdən bəzilərinin iki rəsmi dillərindən biridir. Bu ölkələrin əhalisinin mütləq əksəriyyəti fransızca danışır, yazır, təhsil alırlar. Hətta ABŞ-ın 2, Kanadanın 5, Hindistanın 1 ştatında, İtaliyanın 1 əyalətində və İsveçrənin 1 kantonunda dominant dil fransızcadır.

Bütün bunların səbəbi odur ki, vaxtilə Fransa bu regionları öz əsarəti altında saxlayıb və aborigen xalqları öz dilində danışmağa vadar edib və hələ də onlardan əl çəkmir. Fransanın rəhbərliyi ilə yaradılmış və az qala dünya ölkələrinin üçdə birini birləşdirən Frankofoniya təşkilatının əsas məqsədi fransız dilində danışan ölkələrin xalqlarının bu dili yadırğamamasını təmin etmək, bacardıqca fransız dilini yeni-yeni ölkələrdə yaymaq, inkişaf etdirməkdir. Bu isə artıq neokolonializmdir.

Keçmiş vaxtlarda müstəmləkəçilər öz üzərlərinə "sivilizasiya missiyası" götürmüşdülərsə, müasir pərdə "demokratiya və insan haqları, söz və mətbuat azadlığı"dır.

Əslində isə başqa dövlətləri öz əsarətləri altına, nüfuz dairələri içinə almaq istəyən dövlətlərin əsas və dəyişməz məqsədi çox bəsitdir. Onlar bu ölkələrin təbii və insan resurslarını istismar etmək, unikal və nadir ehtiyatlarına sahiblənmək, başqa ölkələrə tranzit yol, birbaşa çıxış imkanı qazanmaq, onların vasitəsi ilə qlobal ticarəti inhisara almaq, öz ticarətlərinin daha böyük təhlükəsizliyinə nail olmaq məqsədi güdürlər.

Metropol sakinləri ilə müqayisədə müstəmləkələrdə hüquqsuz, daha ucuz və ya hətta köləlik kimi pulsuz əməyin əldə edilməsi, o cümlədən qul əməyinə ehtiyac duyulan yerlərə müstəmləkələrdən "kölə ixrac edilməsi" halları insanlığa qarşı cinayət olub. Əslində metrpoliyalar ucuz işçi qüvvəsi əldə etməyin yeni formalarını ərsəyə gətiriblər. Bu dəfə kasıb ölkələrdən yüz minlərlə insan varlı, keçmiş metropol ölkələrə axışır, onlara öz ucuz əməklərini təklif edirlər.

Söhbət kolonial siyasətdə zirvə yapanlardan gedirsə, təkcə Fransanın adını çəkmək yetərli olmaz, vaxtilə İngiltərə, ABŞ, İspaniya, Almaniya, Portuqaliya, Rusiya və başqa ölkələr də bu sahədə dünya tarixində dərin izlər qoyublar. Fəqət başqa dövlətlər müəyyən qədər özlərinə yığışsalar da, dövlət müstəqilliyi tələb edən xalqları yarıkönüllü-yarıməcburən suverenlik versələr də, Fransa hələ də direşir.

Ən qəribəsi odur ki, öz müstəmləkələrinə müstəqillik, öz müqəddəratını təyinetmə hüququ verməyən Fransa Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində yaşayan ermənilərin separatçı hərəkatlarına tam dəstək verir, onların öz müqəddəratlarını ikinci dəfə (Ermənistan Respublikasından sonra) təyin etmək hüququ verilməsini tələb edir.

**Azərbaycan Prezidenti İlham Əliyev 2-ci Qlobal Şuşa Forumunda bu məsələlərə toxunaraq deyib ki, Azərbaycan kolonializmdən əziyyət çəkən bütün xalqları dəstəkləməyə davam edəcək:** "Bakı Təşəbbüs Qrupunun fəaliyyəti bu mənada müstəsna əhəmiyyətə malikdir. Kolonializmdən əziyyət çəkən xalqların səsini heç kəs eşitmir".

Bəli, artıq "Böyük coğrafi kəşflər dövrü" arxada qalıb. İndi dünyada insan ayağı dəyməyən ada qalmayıb. Vasko da Qama, Ceyms Kuk, Xristofor Kolumb, Ameriqo Vespuççi, Magellan və başqalarının kəşf etdiyi, işğal etmələri üçün imperatorlara tuşutduğu ölkələr müstəmləkə olaraq qalmaq, bu və ya digər ad altında istismar olunmaq istəmirlər.

Fakt budur ki, bir çox dövlətlərin müstəqilliyi şərti, formal xarakter daşıyır, onlar hələ də metropoliyalar tərəfindən idarə olunur, onlara işləyirlər.

Böyük ehtimalla bu yeni əsrdə bütün müstəmləkələr tam müstəqillik əldə edəcəklər.

❑ **Araz ALTAYLI,**
**"Yeni Musavat"**

# Azərbaycana qarşı informasiya savaşı - Şuşadan "atəş nöqtələri"nə nöqtəvi zərbələr

## Hikmət Babaoğlu: "Bəzi mərkəzlər müxtəlif dövlətləri hədəf almaqla onların ətrafında manipulyasiya çətiri yaradır"

**Şuşada 20-22 iyul tarixində keçirilən və 50-dən çox ölkənin media qurumlarının təmsilçilərinin qatıldığı 2-ci Şuşa Qlobal Media Forumunun əsas hədəflərindən biri sözsüz ki, ölkəmizə qarşı informasiya müharibəsini neytrallaşdırmaqla bağlı idi. Buna əhəmiyyətli dərəcədə nail olunduğunu söyləmək olar. Hər halda, forumun qonaqları özləri ilə daşdan keçən Azərbaycan həqiqətlərini də aparacaqlar.**




Təbii ki, Prezident İlham Əliyevin forumda çıxışı, müxtəlif ölkələri təmsil edən media nümayəndələrinin suallarını təmkinlə, əhatəli və olduqca arqumentli cavablandırması Azərbaycan əleyhinə informasiya savaşına müsbət mənada öz təsirini mütləq göstərəcək. Bunu erməni artıq radikal-revanşist mediasının təlaşından da aydın görmək olar.

**Çıxışında Prezident bu xüsusda vurğuladı ki, bəzən Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur:** "Biz uzun illər ərzində bunun qurbanı olmuşuq, onlardan biri Ermənistan və Azərbaycan arasındakı münaqişə idi və bütün erməni diasporunun səfərbər olması idi. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər, Azərbaycan haqqında yanlış narrativlər yayırdılar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər".

**Dövlət başçısı haqlı olaraq qeyd edib ki, Azərbaycan torpaqlarının işğalı 30 il davam etsə də, Ermənistan deyil, Azərbaycan dünyada təcavüzkar kimi təqdim edilib, medianın bu məsələni işıqlandırması, siyasi motivlərə söykənən mesajlar və qərarlar nəticəsində biz beynəlxalq sanksiyalara məruz qalmışıq:** "ABŞ 1992-ci ildə Azərbaycana qarşı sanksiyalar tətbiq edib. Konqresin ermənipərəst nümayəndələrinin səyləri nəticəsində bizə qarşı sanksiyalar tətbiq olunub. Absurd bir vəziyyətdir ki, humanitar böhrana məruz qalan, bir milyon qaçqını olan, işğal edilmiş əraziləri tamamilə dağıdılan bir ölkə sanksiyalara məruz qalmışdır".

Bunu da xatırladıb ki, vaxtilə Prezident Tramp "Vaşinqton Post"u və "Nyu-York Tayms"ı feyknyus, yəni yalan xəbər mənbəyi adlandırıb.

**Millət vəkili Hikmət Babaoğlu "Yeni Müsavat"a bildirdi ki, II Qlobal Media Forumunda təkcə Azərbaycanı deyil, əksər dünya ölkələrini maraqlandıran məsələlər gündəmə gətirildi:** "Şuşada keçirilən II Qlobal Media Forumu bu gün beynəlxalq münasibətlər sistemində mövcud olan ən aktual məsələlərdən birinə həsr olunmuşdu. Qlobal cəmiyyətin bütün institutları təəssüf ki, bəzi hallarda yalan informasiya daşıyıcısına, dezinformasiyanın hədəfinə çevrilir. Bu o qədər geniş vüsət alıb ki, hazırda dezinformasiya və manipulyasiya siyasəti klassik diplomatiyanın bir qolu kimi çıxış edir. Bu isə qlobal ictimai rəydə yalnız təsəvvür formalaşdırır.

Beləliklə, dövlətlərarası münasibətlər, beynəlxalq təşkilatlarla dövlətlərin münasibətlərində yalan üzərində qurulmuş informasiya mübadiləsi baş verir. Bu isə gerçəkliyin dərk edilməsini çətinləşdirir. Bu baxımdan Şuşada keçirilən forum yalan məlumatların ifşası kontekstində dezinformasiyaları yaradan səbəblərin, dezinformasiyanın gətirdiyi nəticələrin ictimai etimad mühitinə vurduğu zərbələrin öyrənilməsi, tədqiq edilməsi, aktuallaşdırılması, bu problemlərdən xilas olma yollarının axtarılması məqsədi daşıyırdı.

Şübhəsiz, diqqət etsək görəcəyik ki, Azərbaycan, müstəqilliyini əldə etdikdən dərhal sonra məhz bu cür yanlış məlumatların, dezinformasiyaların, ətrafında yaradılan yalançı informasiya mühitinin qurbanına çevrilib. Azərbaycan 30 il ərzində həqiqətlərini dünyaya çatdırmaq üçün həm də informasiya müharibəsinə qoşulmalı olub. Məsələnin ən pis tərəfi ondan ibarətdir ki, bu gün də yanaşma dəyişməyib. Bəzi mərkəzlər yenə də müxtəlif dövlətləri, beynəlxalq subyektləri hədəf almaqla onların ətrafında manipulyasiya çətiri yaradır və beləliklə, həmin subyekt beynəlxalq rəyə, beynəlxalq münasibətlər sisteminə fərqli obrazda təqdim olunur. Bu isə milli aktorların nüfuzu və maraqları baxımından qəbuledilən deyil.

44 günlük Vətən müharibəsi dövründə dezinformasiyaya qarşı uğurlu mübarizə apara bildik, amma Azərbaycan Prezidentinin mövqeyi ondan ibarətdir ki, bütövlükdə dünya siyasəti bu cür məsələlərdən xilas olmalıdır. Analiz edəndə görürük ki, iki mühüm məsələ var. Bunlardan biri dezinformasiyadırsa ki, informasiyanın təhrif olunması, məqsədyönlü şəkildə eybəcərləşdirilməsi xarakteri daşıyırsa, ikinci cəhət manipulyativ informasiyadır. İkinci daha təhlükəlidir, çünki birbaşa insanların beyninin idarə olunmasına yönələn imperativ mövqe quran informasiya növüdür. Bu insanların idraki keyfiyyətlərindən kənarda baş verən hadisədir. Hesab edirəm ki, II Şuşa Qlobal Media Forumunda bu məsələ aktuallaşdırılaraq bütün dünya mediasının gündəminə təqdim oluna bildi. Azərbaycanın qaldırdığı bu məsələ Qlobal Media Forumundan sonra dünya mətbuatının əsas xəbərlərindən birinə çevrildi".

**H.Babaoğlu Azərbaycan Prezidentinin çıxışına istinadən qeyd etdi ki, Ermənistan Azərbaycana qarşı informasiya müharibəsini hələ də davam etdirir:** "Azərbaycan Prezidenti milli maraqları və Azərbaycan dövlətinin mövqeyini ortaya qoyaraq hazırda Ermənistan və onun havadarları tərəfindən Azərbaycana qarşı dezinformasiya və manipulativ informasiya siyasətinin həyata keçirildiyini diqqətə çatdırdı. Bu əslində informasiya müharibəsidir. Bəzi məsələlərin öz rəngində deyil, başqa rəngdə təqdim olunması şübhəsiz ki, siyasi politranı o qədər mürəkkəbləşdirir ki, hansı siyasətçinin hansı məqsədə xidmət etdiyi kölgədə qalmış olur.

Mənə elə gəlir ki, II Şuşa Qlobal Media Forumu məqsədlərinə çatdı. Məlumdur ki, güc əksər hallarda ədalətsizlik üçün vasitəyə çevrilir. Lakin Azərbaycan real müharibə müstəvisində bir ilk yaradaraq, öz ərazi bütövlüyünü bərpa etməklə gücün həm də ədalət üçün vasitə olduğunu göstərdi. Azərbaycan nümunəsində həm güc, həm də ədalət birgə oldu. Azərbaycanın gücü beynəlxalq hüquq və ədaləti təmin etmiş oldu. II Şuşa Qlobal Media Forumunda səslənən fikirlər hazırda bütün gücü ilə davam edən informasiya müharibəsində dönüş yaradacaq ideyalar məcmusu idi. Bu da informasiya gücünün, yəni "yumşaq güc"ün ədalətlə çulğaması üçün yeni bir zəmin yaratdı ki, nəhayət, manipulyativ informasiya və dezinformasiya diplomatiyaya, siyasətə yanlış fon verməməlidir. Bu, heç də beynəlxalq münasibətlərin keyfiyyəti baxımından məntiqi və başadüşülən deyil".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

# AQTA 113 aptekdə nöqsan aşkarladı

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) bu ilin yanvar-iyun ayları ərzində ümumilikdə 154 aptekdə yoxlama keçirib. Bu barədə Musavat.com-a AQTA-dan məlumat verilib.**



Qeyd olunub ki, aparılan yoxlamalar zamanı xüsusi təyinatlı qida məhsulları (uşaq qidaları, diyetik qidalar və digər), təbii mineral sular və bioloji aktiv qida məhsullarının satışı həyata keçirilən apteklərdə bir sıra uyğunsuzluqlar aşkar edilib:

- 102 aptekdə sanitar norma və qaydalara əməl edilməməsi;
- 3 aptekin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi;
- 4 aptekdə ümumilikdə 5 adda 18 məhsulun idxal sağlamlıq aktının mövcud olmaması;
- 5 aptekdə ümumilikdə 8 adda 44 məhsulun üzərində müalicəvi xüsusiyyətlərə malik olması barədə məlumatların əks olunması;
- 9 aptekdə ümumilikdə 15 adda 32 məhsulun üzərində Azərbaycan dilində məlumatların əks olunmaması;
- 7 aptekdə ümumilikdə 18 adda yararlılıq müddəti bitmiş 32 bioloji aktiv qida məhsulunun satışı;
- 4 aptekdə ümumilikdə 4 adda 9 məhsulun istifadə qaydası və dozasının müvafiq rəyə və istifadənin yaş həddinə uyğun göstərilməməsi;
- 1 aptekdə 1 adda məhsulun içlik vərəqində, 1 aptekdə isə 2 adda 21 məhsulun qablaşdırmasında göstərilən yararlılıq müddətinin uyğun göstərilməməsi;
- 2 aptekdə ümumilikdə 2 adda 5 dərman vasitəsinin bioloji aktiv qida məhsulu kimi satışa təqdim edilməsi;
- 4 aptekdə ümumilikdə 47 adda 53 bioloji aktiv qida məhsulunun üzərində dərman vasitələrinə vurulan "Nəzarət markası" ilə markalanması və digər nöqsanlar.

Agentlik tərəfindən həyata keçirilən tədbirlərlə ümumilikdə 113 aptekdə nöqsan aşkar edilib ki, onlardan 17-də məhsul satışının dayandırılması, 14-də məhsul satışının qadağan edilməsi, 3-də məhsulun dövriyyədən çıxarılması, 24-də iş personalının işdən kənarlaşdırılması və 1-də isə işlərin görülməsinin, xidmətlərin göstərilməsinin dayandırılması barədə məhdudlaşdırıcı qərarlar verilib, həmçinin sözügedən müəssisələrin məsul şəxsləri barəsində inzibati tənbeh tədbiri görülüb. 41 aptekdə isə hər hansı uyğunsuzluq aşkar edilmədiyi üçün nəticə qənaətbəxş hesab olunub.

Həmçinin cari dövr ərzində apteklərdə keçirilən monitorinqlər zamanı 39 aptekdə bioloji aktiv qida məhsullarının onlar üçün ayrılan rəf və dolablarda dərman vasitələrindən ayrı saxlanılmadığı, həmin rəf və dolabların üzərində "Bioloji aktiv qida məhsulları" sözləri, onun alt hissəsində isə "Dərman vasitəsi deyildir" sözlərinin qeyd olunmadığı, 9-da Azərbaycan dilində markalanması olmayan və 1-də isə yararlılıq müddəti bitmiş bioloji aktiv qida məhsulları aşkar edilib.

Görülmüş tədbirlər çərçivəsində tələblərə uyğun olmayan məhsullar satışdan kənarlaşdırılıb, aptek rəhbərlərinə icrası məcburi göstərişlər verilib və qanunvericiliyin tələbləri bir daha izah olunub.

Bundan başqa, 1 aptekdə bioloji aktiv qida məhsullarının həkim reseptinə yazılması faktı aşkar edilib ki, bununla bağlı müvafiq tədbir görülməsi üçün zəruri məlumatlar aidiyyəti üzrə göndərilib.

Qeyd edək ki, agentlik tərəfindən aptek rəhbərlərinə mövcud tələbləri özündə əks etdirən xəbərdarlıq məktubları göndərilib.

YENİ MÜSAVAT
N 128 (8501) 24 iyul 2024



# Cəlbedici məzunlar

Zamin HACI
zaminhaci@gmail.com

"Sənin atını mənim atım keçmədimi?
Ox atanda mən sənin oxunu yarmadımmı?
Güreşdə mən səni basmadımmı?
Üç öpüb bir dişləyüb altun yüzügi
barmağına keçürmədimmi?
Sevişdigin Bamsı Beyrək mən degilmiyəm?"
*("Kitabi-Dədə Qorqud")*

**Bir qrup orta məktəb məzunu bahalı avtomobillərdə "Son zəngi" qeyd etmiş, Bakı şəhərinin küçələrində karvanla şütümüşdür. Qəribədir ki, bu əhvalat son zəngdən 1 ay sonra aşkara çıxdı, videolar yayıldı, yeniyetmələr, onların varlı valideynləri qınaq hədəfinə çevrildi.**

Hamısını edən xarici qara qüvvələrdir. Məktəblilərimizə ləkə salmaq istəyirlər. Halbuki o uşaqların hər birisi vətənin keşikçisidir! Yaxın zamanlarda əldə silah sərhədlərimizin keşiyində duracaqlar! Buna şübhə etməyiniz, vətəndaşlar. 44 günlük müharibədə həmin "Maserati" sürən uşaqlar tank sürürdülər.

Uşaqları gözüqıpıq böyütmək olmaz. Sonra fikirləşirik niyə "Formula 1" pilotlarımız yoxdur. Sözgəlişi, həmin məktəblilərin dövlətimizin oxşar yarışları təşkil etməsindən ruhlandığı açıq-aşkar göz qabağındadır.

Sevindirici haldır ki, əlaqədar orqanlar bunu başa düşür. Məsələn, qəzetin sorğusuna idarədən belə cavab gəlmişdir: "Paytaxtın Səbayel rayonunda məktəblərdən birinin məzunlarının idarə etdiyi müxtəlif markalı 14 avtomobil müəyyən olunub müvəqqəti mühafizə olunan duracağa təmin olunub". Sitatın sonu.

Gördüyümüz və şad olduğumuz kimi, burada hər hansı cəzadan söz belə getmir. Avtomobilləri duracaqla təmin ediblər, sağ olsunlar. Hazırda biz bilirik ki, duracaqların qiyməti çox bahadır. Mənim bu temada yazım olmuşdu, ona Ruslan Səfərov adlı izləyicimizdən (məncə, bu, "oxucu" sözündən daha maraqlı sözdür və hazırkı dövlətçiliyimizə uyğundur) reaksiya gəldi.

Bəy yazır ki, siz parkinq mesajlarına pul çıxılmasını tənqid edirsiniz, lakin daha ciddi soyğunçuluq vaxt hesabında olur. Hər saat üçün ödəniş 70 qəpikdirsə, əlavə 1 dəqiqə üçün də 70 qəpik alırlar. Yəni avtomobili parkinqdə 1 saat 1 dəqiqə saxlasan, mexaniki olaraq səndən 1 manat 40 qəpik alırlar. Doğrudan da ədalətsiz yanaşmadır. Üstəlik, insanların parkinqdə daha az qalmağa marağı yaranmır.

İlk baxışdan harınlıq kimi görünən əməllər bəzən mərdlikdən doğa bilər. Ya da kimsə guya xeyriyyəçilik edər, araşdırarsan, ən yekə oğru olduğu ortaya çıxar. Gözümüzün qabağında, daha dəqiqi, Elmlər Akademiyasının böyründə intihar propaqandası aparan kofe maşını qoyubmuşlar. "Özünü öldürmə, kofe iç" - şüar təxminən belə imiş.

Hadisə qəzetdə yazıldı, orqanlar hərəkətə gəldi, deyəsən, kofe satanı tutublar. Ancaq bənzər reklamlar axı hər yerdədir?! Metroya girirsən, görürsən kiminsə iynə vuran şəkli asılıb, yanında isə kitab oxuyan gəncin fotosu. Şüar da təxminən belədir ki, narkotik aludəçisi olunca AYB üzvü ol.

Yaxud guya eyni adamın 2 şəklini avtobusun böyrünə, dayanacağa yanaşı vururlar, şərhi də belədir ki, adam narkoman idi, lakin indi cüdoçu olmuşdur, sən də bizə qoşul, güləş, filan-falan... Ara yerdə qəhvə satan zibilə düşdü.

Ölkəmizdə internet inkişaf elədikcə kibernetik cinayətlər, virtual dələduzlar da artır. Bugünlərdə polisin vətəndaşlara çağırışını oxuduq: "... diqqətli olun, şəxsi məlumatlarınızı naməlum şəxslərlə bölüşməyin, təhlükə var ..." və sairə. Yaxşı profilaktikadır. Ancaq çağırışın son cümləsi mənə həm ləzzət elədi, həm də düşündürdü. Buyurun, belə yazmışdılar: "... cəlbedici görünən hər bir təklif yalandır".

Necə yəni? Bəs qarşıdan gələn seçkilərdə deputatlığa namizədlərin cəlbedici vədlərinə də inanmasaq, kimi seçməliyik? Cəlbedici olmayan təkliflərə səs verməliyikmi?

Yaxşı olar gələcəkdə belə çağırışlar "cəlbedici görünən bəzi təkliflər yalandır" formasında bitsin.



# Azərbaycana qarşı məkrli oyun - sülh bu il də sənədləşməsə...

## Kapitulyant ölkənin rəhbərliyi hələ də "bəlkə də qaytardılar" ümidi ilə yaşayır; analitiklərdən xəbərdarlıq: "Paşinyan Ermənistan üçün ən pis variantın ardınca gedir"

**Azərbaycan cari ilin sonunadək Ermənistanla sülh anlaşması imzalayacağına ümidini itirməyib. Bunu Prezident İlham Əliyevin iyulun 20-də 2-ci Şuşa Qlobal Media Forumunda etdiyi çıxışdan da görmək olardı.**

"Sülh sazişinə gəldikdə, mənə xarici işlər naziri tərəfindən verilən məlumata görə, mətnin 80-90 faizi razılaşdırılıb. Ermənistan həmin o müddəanı və terminologiyanı (Qarabağla bağlı - red.) oradan götürməyə razı oldu və beləliklə, normallaşma prosesində irəliləyiş baş verir", - dövlət başçısı bildirib.

**Prezident eyni zamanda hələlik iki məsələnin açıq qaldığını bildirib:** "Onlardan biri odur ki, Ermənistan bizim təkliflərə müsbət cavab verməlidir. İkincisi, həm Ermənistan, həm Azərbaycan birgə ATƏT-ə müraciət etsin ki, Minsk Qrupu ləğv edilsin. Çünki bu qrup artıq uzun müddətdir fəaliyyətsizdir".

**Prezidentin köməkçisi Hikmət Hacıyev isə jurnalistlərə açıqlamasında deyib:** "Sülh sazişi ilə bağlı vaxt çərçivəsi qoymuruq. Azərbaycan gözləyir ki, ərazi iddiasına son qoyulsun. Anlayırıq ki, konstitusiya hər ölkənin daxili işidir, amma burada başqa ölkəyə qarşı ərazi iddiası olmamalıdır. Hüquqi çərçivə ərazi iddialarına son qoyacaq formada olmalıdır".

Təəssüf ki, Paşinyan hökuməti zaman amilindən sui-istifadə edir, Bakının daimi sülhü daha etibarlı edəcək təkliflərini qəbul etməyə tələsmir, söz oyunbazlığı ilə məşğul olur. Bunu erməni tərəfinin hələ də Minsk Qrupuna bəslədiyi ümid və Paşinyanın Londonda İlham Əliyevlə görüşdən yayınması bir daha təsdiqlədi. Üstəgəl, sanki hansısa xarici qüvvə, əl vaxtaşırı İrəvanı yekun sülh sənəd imzalamağa qoymur. Hansı qüvvə?

Tanınmış rusiyalı analitik İqor Korotçenko Azərbaycana qarşı gizli oyunun getdiyini istisna etmir. Onun sözlərinə görə, mümkündür ki, Fransa, ABŞ və Ermənistanın Azərbaycana təzyiq göstərmək üçün böyük oyunu gedir.

"Lakin Paşinyan bu il ərzində sülh imzalamasa, Ermənistan üçün nəticələri ağır ola bilər. O, özü üçün ən pis variantın ardınca gedir. Ermənistan bölgədə hər hansı kombinasiyalar oynamağa çalışacaq durumda deyil. Onun sülhə və sakit inkişafa ehtiyacı var. Paşinyan öz siyasətini Qərbin istəkləri ilə koordinasiya etməkdə davam edərsə, bu, ciddi fəsadlara gətirə bilər. Ermənistan bu il Azərbaycanla sülh müqaviləsinin imzalanması prosesini pozmaq üçün hər şeyi etsə, çox pis olar".

**Öz növbəsində digər rusiyalı tanınmış analitik Maksim Şevçenko hesab edir ki, nə qədər ki, erməni xalqı xarici qüvvələrin əlində alət kimi qalacaq, bu xalqı daim yeni müharibələrin ortasına atmaq mümkün olacaq.** "Ermənistan başqalarının oyununda piyada rolundadır", - politoloq vurğulayıb.

**Politoloq Anar Əliyev** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə və qətiyyətlə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması üçün bir sıra zəruri şərtlərin yerinə yetirilməli olduğunu bəyan edib: "Başlıca olaraq Ermənistanın qanunvericilik aktlarında və konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının özündə əks elətdirən beynəlxalq hüququn prinsiplərinə zidd, müstəqil dövlətin daxili işlərinə qarışma kimi qiymətləndirilən və reallıqlara əks olan bir sıra absurd müddəalar hələ də mövcuddur. Bizim şərtimiz həmin əsassız müddəalardan imtina olunması və bundan sonra sülh müqaviləsinin bağlanmasıdır. Amma son dövrlər Ermənistan tərəfinin ritorikası, eyni zamanda Ermənistan baş nazirinin Azərbaycan Prezidenti ilə görüşdən yayınması, Fransa, Yunanıstan, Hindistan vasitəsilə silahlanmaya davam olunması, ABŞ hərbçiləri ilə Ermənistan hərbçilərinin birgə təlimlərinin keçirilməsi, ABŞ-ın Ermənistan Müdafiə Nazirliyində xüsusi müşavirliyinin təyin olunması onu göstərir ki, Ermənistan ritorikada sülhdən, sülh müqaviləsinin imzalanmasından danışsa da əslində praktiki istiqamətdə heç bir addım atmır. Əksinə, sülh prosesinə ciddi zərbə vura biləcək gedişlər etməkdədir.

Burada təbii ki, Ermənistanın mahiyyəti, Ermənistan hakimiyyətinin, həm də Ermənistanın havadarlarının davranışları mühüm rol oynayır. Çünki onun Qərb havadarları, xüsusilə də Fransa, ABŞ indiki şərtlər daxilində Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasını özlərinin Cənubi Qafqaz maraqlarına, Orta Şərq maraqlarına ölümcül zərbə kimi qiymətləndirirlər. Fransa və ABŞ "beyin mərkəzləri"nin təhlillərinə əsasən Ermənistanla Azərbaycan arasında indiki şərtlər daxilində sülh sazişinin imzalanması Cənubi Qafqazın Qərb prizmasından birdəfəlik itirilməsinə gətirib çıxaracaq. Çünki ondan sonra Rusiya ilə yanaşı, Çinin də bölgədəki imkanlarını, nəzarət mexanizmlərini genişləndirmiş olacaq. Nəticə etibarilə Çin məhsullarının dünya bazarına axınını təşkil eləyəcək ən mühüm damarlardan biri olan Orta dəhlizin Zəngəzur xətti daha çox Rusiya və Çinin, eləcə də Türkiyə və Azərbaycanın nəzarəti altında reallaşmış olacaq ki, bu, indiki halda Qərb texnoloqları tərəfindən çox ciddi risklər kimi qiymətləndirilir. Ona görə də həmin projelərin reallaşmasına əsas maneə kimi məhz Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmamasını görürlər və bütün vasitələrdən istifadə etməklə Ermənistana təsir göstərməklə sülh müqaviləsinin imzalanmasının qarşısını almağa çalışırlar".

**Politoloqa görə, Fransa başda olmaqla, Qərbin Ermənistanı silahlandırması da erməniləri sülh müqaviləsi imzalamaqdan çəkindirməyə yönəlib:** "Qərb yaxşı bilir ki, Ermənistan ona verilən silahlardan revanşist planları üçün istifadə etməyə çalışacaq, sülhdən uzaqlaşacaq. Hesab edirlər ki, Ermənistanda revanşist əhval-ruhiyyə daha da artacaqsa, Azərbaycanla sülh müqaviləsinin imzalanması sual altına düşəcək, bu da Qərbin planlarının reallaşması üçün zaman qazanmasına gətirmiş olacaq".

**Siyasi şərhçi Aydın Quliyev də hesab edir ki, Ermənistanı sülh sazişi imzalamağa qoymayan Qərbdir:** "Ermənistan Qərb ölkələrindən yeni dəstəklər alır, ABŞ, Avropa Birliyi Azərbaycana təzyiqi artırır. Cəmi bir-iki günün içində Ermənistana beynəlxalq aləmdə verilən 3 böyük dəstək addımını birlikdə qısaca təhlil edək. Avropa İttifaqının Sülh Fondu Ermənistanın hərbi dayanıqlığının artırılması üçün ona 10 milyon avro yardım ayırdı. May ayında Macarıstanın baş naziri Orban bu qərarı ilk müzakirədə bloklamışdı və eyni yardımın Azərbaycana da ayrılmasını tələb etmişdi. Təəssüf, erməni lobbisi yenə üstələdi. Fransa hərbi texnika ilə təchiz edir, Avropa Birliyi hərbi təyinatlı maliyyə yardımı ayırır. .Özü də qisas niyyəti ilə yaşayan və sülh sazişini imzalamaqdan açıq şəkildə yayınan Ermənistana.

ABŞ Dövlət Departamentinin məsul əməkdaşı Ermənistanın Müdafiə Nazirliyində müşavir kimi fəaliyyətə başlayacaq. Olsun, formalda hər ikisi suveren dövlətlərdir və hər istiqamətdə əməkdaşlıq qura bilərlər. Bəs Ermənistanın sülh sazişi üçün çox vacib olan şərtləri icra etmədiyi bir vaxtda belə əməkdaşlıq nə qədər doğrudur? İndi ABŞ-ın dövlət katibi Blinkenin sözlərinə necə inanaq ki, "Azərbaycanla Ermənistan saziş imzalamağa bu il daha da yaxınlaşıblar"? Avropa Birliyi Ermənistanla viza rejimini sadələşdirmək üzərində işə başlayıb. Yenə də öz suveren siyasətləridir, özləri bilər. Ancaq bu kimi addımlarla Ermənistanın sülhdən yayınma siyasətini bir az da ruhlandırı biləcəklərini avropalılar doğrudanmı dərk etmirlər? Ola bilməz..."

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 128 (8501) 24 iyul 2024

# İrəvandakı səfir Putinin imzasına qarşı - Rusiya Zəngəzur dəhlizinin əleyhinədir?

## Sergey Kopırkin "oriyentir"i itirib; rəsmi Moskva üçün vacib layihəyə qarşı çıxışın pərdəarxası; Bakıdan ilginc reaksiyalar

**Zəngəzur dəhlizi ətrafında siyasi intriqa bitmir. Bu dəfə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin qəribə, bir qədər də ikibaşlı açıqlaması ilə diqqət çəkib.**

"Yeni Müsavat"ın məlumatına görə, ötən həftəsonu "Sputnik Ermənistan"a danışan diplomat öncə ermənicə "Sünik" adlandırdığı Qərbi Zəngəzurda (Qafanda) Rusiya konsulluğunun yaxınlarda açılmasının mümkünlüyündən söz açıb. Qafanda tərəflərin bu məsələdə əhəmiyyətli irəliləyiş əldə etdiklərini və konsulluğun nota mübadiləsi aparılmadan sadələşdirilmiş sxem üzrə açılacağını söyləyib. Onun sözlərinə görə, "Sünik" bölgəsi Ermənistan və Avrasiya İttifaqının İranla ticarəti üçün "qapı"dır: "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin bir hissəsi buradan keçir ki, bu da respublika üçün böyük əhəmiyyət kəsb edir. Bildiyiniz kimi, Rusiya tərəfi bu magistralın tikintisinə yardım edir".

Davamında isə diplomat bildirib ki, "iddiaların əksinə olaraq, Zəngəzur dəhlizi" Rusiyanın gündəmində deyil, - hansını ki, Qərbdə Moskvanın ayağına yazmaq istəyirlər". Səfir əlavə edib ki, Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin blokadadan çıxarılması ilə Rusiya, Azərbaycan və Ermənistan baş nazir müavinlərinin rəhbərlik etdiyi üçtərəfli işçi qrupu məşğul olur.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən imzalanmış 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatda Azərbaycandan Azərbaycana (Naxçıvana) maneəsiz keçidi nəzərdə tutan Zəngəzur dəhlizi haqqında konkret müddəa var - 9-cu bənd. Belə çıxır ki, səfir Putinin imzasını ciddiyə almır?

İnandırıcı deyil, təbii ki. Sadəcə, ötən illər ərzində Rusiyanın İrəvandakı səfiri o qədər ermənilərin mövqeyindən çıxış edib ki, sanki "oriyentir"i itirib. Ermənistan "sülh kəsişməsi" adı altında manipulyasiya edir. Eyni zamanda İranın və Fransanın diktəsi ilə Zəngəzur dəhlizini əngəlləməyə çalışır. Ancaq unudur ki, Zəngəzur dəhlizi həm də onun özünü xilas layihəsidir, bunu bir müddət öncə Türkiyə lideri də İrəvana mesaj olaraq bildirmişdi.

Amma səfir doğrudanmı özbaşına danışır, bu da maraqlıdır və mübahisəli məsələdir. Bu da var ki, 2020-ci ilin üçtərəfli bəyanatının sonuncu bəndinin icrası daha çox Rusiyaya lazımdır. Səfirin dedikləri isə fərqli situasiya yaradır. Rusiyaya Qərbin sərt sanksiyaları fonunda Zəngəzur dəhlizi gerçəkdənmi gərək deyil, yaxud gərəkdirsə, hansı şərtlər daxilində? Səfir Bakıya nəyin işarəsini verir? Ekspertlərin mövzu ilə bağlı maraqlı şərhləri var.




**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov "Yeni Müsavat"a açıqlamasında öncə bildirdi ki, Ermənistan kiçik bir dövlətdir, bu başından o biri başına bir neçə saata getmək olur:** "Bu halda həmin ölkədə paytaxtdan kənar ərazidə hansısa dövlətin konsulluq açması konsul xidməti göstərməkdən daha çox siyasi məqsəd daşıyır. İrandan sonra Rusiyanın həmin ərazidə konsulluq açması da yəqin daha çox siyasi məqsəd daşıyır. Amma həmin ərazidə başqa dövlətlərin konsulluq açması Zəngəzur dəhlizinin işə salınmasına birbaşa mənfi, yaxud müsbət təsir göstərmir. Zəngəzur dəhlizi heç Ermənistanın özünə və digər dövlətlərə Ermənistan ərazisi üzərindən İranla kommunikasiya əlaqələrini qurmağa və inkişaf etdirməyə də mane olmur. Adı bir yol ötürücüsü tikməklə problem həll olunur. Dəfələrlə qeyd etdiyimiz kimi, Zəngəzur dəhlizindən keçəcək dəmiryol və avtomobil yolunun yerləşdiyi ərazi üzərində eksterritorial yurisdiksiya olmayacaq. Bu ərazilər Ermənistanın suveren əraziləridir. Sadəcə, həmin yoldan keçən Azərbaycan yükləri, nəqliyyat vasitələri və sərnişinlərin yoxlanılması olmayacaq. Yolların mülkiyyətçisinin, yaxud operatorunun da hansı dövlət olacağı o qədər əhəmiyyətli deyil. Əsas odur ki, təhlükəsizlik təmin olunsun".




**S.Məmmədov qeyd etdi ki, Rusiya danışıqlarda vasitəçi olarkən sülh proseslərinin tərkib hissəsi olaraq Zəngəzur dəhlizi məsələsinə də diqqət yönəltməli oldurdu:** "Amma indi Ermənistan Rusiyanın proseslərdə tərəf olmasında maraqlı deyil. Rusiyanın Ermənistana davam etməkdə olan münasibəti fonunda Ermənistan demarşlarını davam etdirməkdədir və artıq Avropa İttifaqı ilə vizasız gediş-gəliş üçün proseslərə başlayıb. Ermənistan Gürcüstanın illər əvvəl yeritdiyi xarici siyasəti təkrarlayır bir növ. Amma Rusiya da yaxşı bilir ki, Ermənistan tutduğu xarici siyasət kursunu uzun müddət davam etdirə bilməyəcək. Ermənistanın bir gün üzünü Avropadan və Qərbdən çevirəcəyi də istisna olunmur.

Hazırda Rusiya üçün Zəngəzur dəhlizi məsələsi o qədər də böyük önəm kəsb etməyə bilər. Səfirin də qeyd etdiyi kimi, bu məsələ üçün yaradılmış işçi qrup var. Amma hazırda onun da fəaliyyəti gözə dəymir. Hazırda Rusiyanın marağında olan Ermənistanla əlaqələrinin daha da soyumamasıdır. Ola bilər Azərbaycan Prezidentinin son dərəcə uğurlu səfəri də bəzi dairələrin xoşuna gəlməyib.

Bir sözlə, Zəngəzur dəhlizi məsələsində də digər məsələlərdə olduğu kimi, Ermənistan gözləmə mövqeyini davam etdirir. Ermənistan sülh müqaviləsi bağlamaq istəmir və nəyi isə gözləyir və ya nəyə isə hələ də ümid etməkdədir".

**Politoloq Tural İsmayılov isə bildirdi ki, biz Zəngəzur dəhlizini zorla açmaq niyyətində deyilik:** "Baxmayaraq ki, Ermənistan Azərbaycanı Zəngəzur dəhlizi ilə bağlı hərbi aqressivlik və hərbi ritorika göstərməyə çalışmaqda ittiham etməyə davam edir. Sülh müqaviləsi imzalanmadan kommunikasiyaların açılması realdır. Lakin bu gün Zəngəzur dəhlizi layihəsinin əleyhinə çıxan təkcə Ermənistan deyil. Prosesin arxasında daha böyük güc faktorları var. Onlar Türk dünyasını gücləndirəcək, bölgəni ayağa qaldıracaq layihəni başqa formada şərh edərək Zəngəzur dəhlizinin açılmasını əngəlləyirlər".

**T.İsmayılova görə, Azərbaycan Mehri üzərindən Naxçıvana quru keçidlə bağlı öz ritorikasını və siyasətini davam etdirəcək:** "Amma biz hansısa güc yolu ilə, yaxud digər vasitələrdən istifadə edərək Zəngəzur dəhlizini zorla açmaq niyyətində deyilik. İstənilən halda hesab edirəm ki, Azərbaycanın bu məsələdə mövqeyi sabitdir. Sülh şəraitində, iki ölkənin anlaşması şəraitində bu dəhlizin açılmağını istəyirik. Ancaq faktiki olaraq Ermənistanın və Ermənistanın Qərbdəki havdarlarının indiki tormozlayıcı mövqeyi yaxın zamanda dəhlizin açılma imkanlarını sual altına alıb.

Bütün hallarda Azərbaycan dayanmır. Və alternativ yolların üzərində ciddi şəkildə işlər gedir. Rusiya səfiri Kopırkin ola bilsin ki, Ermənistanda güclənən anti-Rusiya əhval-ruhiyyəsini dağıtmaq üçün müəyyən açıqlamalar verir. Rusiyanın Zəngəzur dəhlizinin təhlükəsizliyinə cavabdehlik daşıması da 10 noyabr bəyanatında əks olunub. Bu gün Ermənistanın sürətlə Rusiyadan uzaqlaşması fonunda rus səfirin açıqlamaları erməni ictimai rəyinə təsir məqsədi də daşıya bilər".

**Politoloq Məhəmməd Əsədullazadə dedi ki, Ermənistanda Rusiyanın səfiri Kopırkin daima anti-Azərbaycan ritorikasına üstünlük verib**: "Zəngəzur dəhlizi Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr birgə bəyannaməsinə uyğun olaraq razılaşdırılıb. Məhz Rusiya israr edir ki, dəhliz açılsın və Federal Təhlükəsizlik Xidməti burada yerləşsin. İndiyə qədər də məhz Ermənistan Rusiya amilinə görə dəhlizin açılmasını ləngidir. Əldə edilmiş razılığın üstündən xətt çəkməklə, bir növ Qərbin maraqlarına uyğun açıqlama verib. Yəni Rusiya burada maraqlı deyil, Qərb dəhlizin açılmasını Rusiyaya bağlayır.

Təbii ki, səfirə Rusiya XİN xəbərdarlıq etməlidir. Əgər Rusiya bu dəhlizdən imtina edirsə, bunu açıq formada rəsmi şəkildə bildirməlidir. Hazırda ABŞ dəhlizin açılmasına maraqlıdır. Türkiyə də bu məsələdə israr edir. Hətta Ermənistanı dəhlizi açmağa çağırır. Qərb Rusiyanın burada iştirakını qəbul etmir. Qeyd edim ki, Türkiyə və Rusiya dəhlizin açılmasında maraqlıdır. İkitərəfli dəmir yolu əlaqəsi yaranır".

**M.Əsədullazadə əlavə etdi ki, Zəngəzurda Rusiya konsulluğunun açılması sual altındadır:** "Ermənistan buna qarşıdır. Rusiya həmçinin yaxşı bilir ki, Ermənistan üzərindən dəmir yolu xəttinin Zəngəzurdan çəkilməsi də uzaq perspektivdədir. Yəni hazır Şimal Cənub nəqliyyat dəhlizi var Azərbaycan üzərindən. Səfirin dedikləri Rusiyanın Zəngəzur dəhlizi və regiondan imtinasına əsaslanır. Əgər belədirsə, deməli, Rusiya Ermənistandan çıxır və geopolitik maraqlarından əl çəkir".

Yazı çapa hazırlanarkən Rusiyanın erməni şirkətlərinə sanksiya qərarı ilə bağlı xəbər yayıldı. Belə ki, Rusiyanın "Rosselxoznadzor" qurumu 16 erməni şirkətinə Rusiya bazarına meyvə-tərəvəz ixracına qadağa qoyub.

Modern.az xəbər verir ki, bu barədə Ermənistan Qida Təhlükəsizliyi Müfəttişliyinin məlumatında bildirilib.

Məlum olub ki, qərar iyulun 15-dən qüvvəyə minib. Xatırladaq ki, iyulun 17-də Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarəti Federal Xidməti ("Rosselxoznadzor") Ermənistandan Rusiyaya ixrac edilən meyvə-tərəvəzin aprel-iyun partiyalarında pozuntular qeydə aldığını bildirmişdi.

Rusiya tərəfinin bildirdiyinə görə, onlar bir ay əvvəl problemlə bağlı məlumat veriblər. Ermənistanın Qida Təhlükəsizliyi Müfəttişliyi isə belə bir məktubu iyulun 17-də, yeni qadağanın tətbiqindən 2 gün sonra aldığını qeyd edir. Yükləri problemli olan təsərrüfat subyektlərinə dərhal məlumat verilib və onlar nəzarət tədbirlərinə, xüsusən də Ermənistan-Rusiya strukturları arasında danışıqlara başlayıblar.

Hər halda, maraqlı gedişatdır. Rus səfir Ermənistanın xilas layihəsinə qarşı çıxır. Digər tərəfdən, erməni şirkətlərinə sanksiya tətbiq edilir. Qərbə "inteqrasiya" Ermənistana Rusiya basqılarını artırır.

**❑ E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 128 (8501) 24 iyul 2024

# Tramp gəlsə, dolları zəiflədəcək iddiası

## Manatı və qlobal iqtisadiyyatı nə gözləyir? - şərh

**Co Baydenin seçki prosesindən uzaqlaşması bütün dünyada Donald Trampın ABŞ-da yenidən hakimiyyətə gəlməsinin qlobal iqtisadi təsirlərinə dair müzakirələri aktivləşdirib. "The New York Times"ın yazdığına görə, Tramp payızda seçkilərdə qalib gələcəyi təqdirdə dolları zəiflədə bilər.**



Qəzet bunu ABŞ valyutası üçün "yeni dövr" adlandırıb: "Tramp və onun vitse-prezidentliyə namizədi J.D.Vens zəif dollar, ticarət, vergilər və Çinə qarşı sərtləşmə mövzusunda eyni mövqedədir. ABŞ-ın sabiq prezidenti hesab edir ki, güclü dollar yerli şirkətlərin valyutaları zəif olan ölkələrə məhsul satmasına mane olur".

**Bildirilir ki, Trampın dolları tam olaraq necə devalvasiya etməyi planlaşdırdığı hələ aydın deyil:** "Bir neçə yol var: xarici valyuta almaq üçün dollar satmaq, Federal Ehtiyat Sisteminin rəhbərini dəyişmək (hazırkı sədr Cerom Pauellin səlahiyyətləri 2026-cı ildə başa çatır) və ya ölkələri tariflərlə hədələmək ki, onlar öz valyutalarını gücləndirsinlər".

Qeyd edək ki, iyulun 13-də Trampa sui-qəsd cəhdindən sonra Tramp Trade-nin bazarda populyarlığı kəskin şəkildə artıb. Tramp Trade - Amerika maliyyə mühitində Tramp qalib gələrsə, respublikaçıların əsas ideyaları - daha yumşaq maliyyə siyasəti və artan dövlət xərcləri, yüksək ticarət tarifləri və tənzimləmənin yüngülləşdirilməsi əsasında pul qazanmağa kömək edəcək strategiyaların adıdır.

"Bloomberg" ekspertləri hesab edirlər ki, Trampın hakimiyyətə qayıdışı dolların möhkəmlənməsinə, ABŞ dövlət istiqrazlarının gəlirliliyinin artmasına və bankların, eləcə də səhiyyə və enerji sektorundan şirkətlərin səhmlərinin bahalaşmasına səbəb olacaq. Son həftələrdə Trampın qələbəsinə qoyulan vəsaitlərin artması artıq qızıl qiymətlərinin və Bitcoinin məzənnəsinin yüksəlməsinə səbəb olub.

Məsələ burasındadır ki, treyderlər kriptovalyuta sənayesi üçün əlverişli qiymət siyasətlərinə, geosiyasi gərginliyin artmasına və ABŞ-da inflyasiyanın yüksəlməsinə hesablanan yatırımlara başlayıblar. Lakin bazar ertəsi, Baydenin seçkidən çəkilməsinin ertəsi gün səhər xəzinədarlıq kağızlarının gəlirləri aşağı düşdü, dollar digər dünya valyutalarına nisbətdə zəiflədi. "Financial Times" bunu investorların son həftələrdə Trump Trade daxilində açılan mövqelərə yenidən baxması ilə əlaqələndirir.

Bəzi analitiklər hesab edir ki, Bayden yarışdan çıxdıqdan sonra bu strategiyaların populyarlığı azalacaq. Məsələn, Avstraliya broker şirkəti Pepperstone Demokratların qalib gəlmə şanslarının bir qədər artdığını və seçkinin nəticələri ilə bağlı qeyri-müəyyənliyin dərinləşdiyini nəzərə almaqla, ABŞ dollarının zəifləyəcəyini və bütün aktiv sinifləri üzrə dəyişkənliyin artacağını gözləyir.

Trampın Ağ Evə qayıtmasının əsas nəticələri vergilərin azaldılması, rüsumların artırılması və tənzimləmələrin yüngülləşdirilməsi olacaq. Bu o deməkdir ki, onun prezidentliyi iqtisadiyyatda daha çox inflyasiyaya meyllilik formalaşdıra bilər.

İqtisadi Siyasət Araşdırmaları Mərkəzinin ekspertləri hesab edirlər ki, Trampın seçilmə ehtimalının artması ABŞ dövlət istiqrazları bazarında volatilliyi artırır, birjada volatilliyi azaldır, onların qiymətlərini yüksəldir və həmçinin neftin qiymətinin azalmasına səbəb ola bilər. Onlara görə maliyyə bazarları Tramp administrasiyasının ekoloji problemlərə və ABŞ-ın borcunun davamlılığına daha az diqqət yetirməklə, Bayden administrasiyasına nisbətən birjaya daha çox diqqət yetirəcəyini gözləyir.

Tramp ekoloji xərcləri kəskin şəkildə azaltmağı, yerli neft və qaz hasilatını artırmaq üçün stimullar tətbiq etməyi və korporativ vergiləri azaltmağı planlaşdırır. Bundan əlavə, bildiyimiz kimi, o, təmiz enerji ilə əlaqəli malların, yarımkeçiricilərin və metalların idxalına bu yaxınlarda tətbiq edilən tariflərə baxmayaraq, ABŞ-ın tarif siyasətini, xüsusən də Çinə qarşı sərtləşdirməyi təklif edib.

"Bloomberg" yazır ki, buna uyğun olaraq, Trampın yerli neft hasilatına qoyulan məhdudiyyətləri aradan qaldırmaq vədini nəzərə alaraq, qalib gələrsə, neft, qaz və ənənəvi enerji şirkətləri neftyönümlü siyasətlərdən faydalanacaqlar. Nəşr hesab edir ki, bu vəziyyətdə "Baker Hughes", "Exxon Mobil", "ConocoPhillips", "Occidental Petroleum", "Williams", "Halliburton", "Devon Energy", "Chevron" və başqalarının səhmlərinə diqqət yetirməyə dəyər.

Mütəxəssislər həmçinin "Carpenter Technology Corporation", "Western Midstream Partners", "Argan" və "Wells Fargo" şirkətlərinin səhmlərini vurğulayırlar, çünki Tramp seçilərsə, banklar yumşaq pul siyasətindən faydalana bilər. Müdafiə xərclərinin partiya üçün aydın prioritet olacağını nəzərə alsaq, müdafiə sənayesi şirkətlərinin vəziyyətinin də Respublikaçıların qələbəsi ilə daha yaxşı olacağı gözlənilir.

Trampın prezidentliyinin digər benefisiarı kriptovalyuta şirkətlərinin səhmləridir. Siyasətçi yeni seçiciləri cəlb etmək üçün seçki kampaniyasında Bitcoin və digər rəqəmsal aktivləri dəstəkləmək ritorikasından istifadə edir. Buna görə "Bloomberg Coinbase", "Marathon Digital", "Riot Platforms", "Cleanspark", "MicroStrategy" və "Cipher Mining" şirkətlərinin səhmlərini izləməyi tövsiyə edir.

Tramp hələ kriptovalyutaların tənzimlənməsi ilə bağlı hər hansı konkret təklifini açıqlamasa da, o, əvvəllər skeptik yanaşdığı bu alətə indi daha isti münasibət sərgiləyir: O, vitse-prezident kimi Bitcoin və kriptovalyutaları dəstəkləyən vençur kapitalisti, Ohayo ştatından senator James David Vensi seçib. Kriptovalyuta bazarı ümumiyyətlə, Trampın mümkün yenidən seçilməsinə müsbət reaksiya verir və ekspertlər yaxın müddətdə bu aktivlər sinfində artım gözləyirlər.

Tramp iyun ayında Amerikanın əsas bitkoin mədənçiləri ilə görüşüb. Bitcoin Magazine naşiri David Bailey Trampı iyul ayında Nashvilledə keçiriləcək "Bitcoin 2024" konfransında əsas məruzəçi elan edib.

Kampaniyasının bir hissəsi olaraq, Tramp mayda kriptovalyuta sənayesindən ianələri qəbul etməyə başlayıb və onun bu cür rəqəmsal aktivlərin gələcəyi ilə bağlı bəyanatları getdikcə daha müsbət xarakter alır. O, həm də özünü sektorun ağır tənzimlənməsinə tərəfdar olan Demokratların səs-küylü rəqibi kimi göstərməyə çalışır.

"Reuters" görüş iştirakçılarından birinə istinadən xəbər verir ki, iyun ayında Silikon Vadisində investorlar David Sachs və Chamath Palihapitiya tərəfindən təşkil edilən ianə aksiyası zamanı Tramp ""kriptovalyuta prezidenti olacam" deyib. O, həmçinin daha çox kriptovalyuta şirkətinin ABŞ-da yerləşməsini istədiyini, beləliklə, bu texnologiyada liderliyin Çinə deyil, ABŞ-a aid olduğunu və onun Çinlə artan ticarət və iqtisadi gərginlik kursuna çox uyğun gəldiyini qeyd edib.

Agentlik qeyd edir ki, tariflərin artırılması və vergilərin azaldılması ABŞ-ın büdcə kəsirini genişləndirəcək və geosiyasi gərginliyi artıracaq ki, bu da uzunmüddətli inflyasiya təzyiqlərini artıra və qızılın etibarlı sığınacaq kimi cəlbediciliyini yüksəldə bilər.

Bir sıra ekspertlər bildirirlər ki, Trampın qələbəsi perspektivi, yüksək qiymətlərə baxmayaraq, mərkəzi bankların daha çox qızıl alışını stimullaşdıra bilər, çünki "ABŞ və Çin arasında kəskin münasibətlər" onları dollara alternativ axtarmağa davam etməyə sövq edir.

Ekspertlərə görə, Trampın dövründə ABŞ valyutası daha da möhkəmlənə bilər. Morgan Stanley araşdırmasına görə, Trampın 2017-ci ildə başladığı vergilərin azaldılması siyasətini davam etdirməsi, büdcə kəsirini kəskin şəkildə artıracaq və dolları yüksəldəcək. Dolların bahalaşmasının davam etməsinin başqa səbəbləri də var. ABŞ iqtisadiyyatı, yüksək inflyasiya və artan faiz dərəcələrinə baxmayaraq, nisbi dayanıqlıq nümayiş etdirdi, avro zonası tənəzzülə uğradı və Çin və Yaponiyanın da öz iqtisadi problemləri var. Ekspertlərə görə, ABŞ-ın qlobal iqtisadiyyatın bərpasına rəhbərlik edəcəyi gözlənildiyi üçün dollar inanılmaz dərəcədə güclüdür. Güclü ABŞ dolları çoxmillətli şirkətlər, o cümlədən S&P 500-də əhəmiyyətli paya sahib olanlar üçün mənfi ola bilər, lakin daha kiçik ABŞ şirkətləri daha güclü dollardan faydalanacaqlar.

**İqtisadçı-ekspert Elman Sadıqovun fikrincə, Baydenin seçkidən çəkilməsi hələ Trampın qalib gəlməsi demək deyil:** "Kamala Harris 1 gündə 81 milyon dollar ianə topladı. Bir çox nüfuzlu iş adamları - Soroslar da daxil olmaqla, onu dəstəkləməyə başlayıblar. Faktiki olaraq, Baydenin getməsi Trampa sərf etməyən variantdır əslində. Kamala Harris təmiz reputasiyalıdır, adı hər hansı qanunsuz işdə, korrupsiyada, çirkli oyunda hallanmayıb. Bu baxımdan, Tramp hər nə qədər desə də ki, Harrisə Baydendən daha asan qalib gələcək, qarşıdan çox gərgin seçki prosesi gəlir və heç bir namizəd üçün bu prosesdən qalib kimi ayrılmaq asan olmayacaq. Onu da qeyd edim ki, artıq dünya maliyyə bazarları mövqeyinə korrektələr edir: sui-qəsddən sonra Trampın hakimiyyətə gəlişinə köklənmişdi, indi mövqelər sürətlə dəyişir. Çünki Harris kifayət qədər nüfuzlu namizəddir".

**Ekspert hesab edir ki, Tramp hakimiyyətə gələrsə, əvvəlki dövrdəkindən daha sərt davranış nümayiş etdirəcək:** "O bilir ki, axırıncı dövrüdür, ona görə də daha cəsarətli, daha kəskin addımlar atacaq. Bu addımların qlobal iqtisadiyyata təsirlərini birmənalı qiymətləndirmək mümkün deyil. Hazırda bütün dünyada ənənəvi enerji ilə alternativ enerji arasında böyük bir mübarizə gedir. Düzdür, Qlazqoda alternativ enerjinin qarşısının alınmaz olduğu elan edildi. Lakin ənənəvi enerji tərəfdarları keçid prosesinin tədricən getməsi üçün ciddi fəaliyyətlər aparırlar. Tramp və respublikaçılar daha çox ənənəvi enerji tərəfdarlarına yaxındırlar. Bu baxımdan, Tramp seçildiyi təqdirdə alternativ enerji sahəsinə yatırımların azalması gözləniləndir.

Trampın seçilməsindən qazanacaq sahələrdən biri də kriptovalyuta bazarıdır. Bu bazarın mahiyyətini, təhlükələrini hələ ki dünyada tam müəyyən etmək mümkün olmayıb. 2000-ci illərdə tam nəzarətə götürülən bank sektorundan fərqli olaraq kriptovalyuta bazarına nəzarət imkanları demək olar ki, yox səviyyəsindədir. Bazarın genişlənməsi gedir və bu proses daha çox kölgə iqtisadiyyatı əsaslıdır. Çünki haqq-hesabı aparılmır, axınlara nəzarət yoxdur. Bu baxımdan, Trampın hakimiyyətə gəlişinin bu bazarı daha da böyütməsi nə kimi nəticələrə səbəb olacağını müəyyənləşdirmək mümkün deyil".

**E.Sadıqov bildirir ki, Trampın seçkiqabağı kəskin ritorikasının qalib gələcəyi təqdirdə olduğu kimi qalacağı gözlənilən deyil:** "Təcrübə göstərir ki, prezident olan şəxs seçkiqabağı ritorikasını əksər hallarda davam etdirə bilmir. Çünki ABŞ dövlətinin elə maraqları var ki, heç kim onları iqnor edə bilmir. Tramp Çinlə, NATO ilə bağlı dediklərinə əməl edərsə, bu, yalnız ABŞ deyil, bütün dünyada iqtisadi-siyasi proseslərdə təbəddülatlara səbəb olacaq".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 128 (8501) 24 iyul 2024



# “İynə ucunda ölüm” - inyeksiya fəsadlarından necə qorunmalı?

## Zülfüqar Yusifov: “Pasiyentdən mümkün qədər çox anamnez toplanmalıdır ki...”

**Az öncə Hacıqabulda 55 yaşlı qadın antibiotikdən anafilaktik şok (ən güclü allergik reaksiya - red.) keçirərək ölüb. Maraqlıdır ki, ölüm halı antibiotikin həkim təyin edən dozasından yox, qoyulan sınaqdan baş verib, yəni kiçik dozadan.**

O zaman sual ortaya çıxır: əgər insan sınaqdan da dünyasını dəyişə bilərsə, onda sınaq niyə qoyulur? Başqa üsul, vasitə yoxmu? Yəni sınaq qoyulmadan necə bilmək olar ki, hansısa antibiotiki bu insana vurmaq olar, ya yox? Sınağın dozası ilə bağlı tibbi normalar varmı? Xəstənin ölümündə tibb bacısının günahı nə qədərdir?

Xatırladaq ki, müasir təbabətdə anafilaktik şok “iynə ucunda ölüm” adlanır. Belə pasiyentləri bir qayda olaraq, heç xəstəxana şəraitində də xilas etmək mümkün olmur.

İlk olaraq qeyd edək ki, bakteriyaları öldürən və ya onların çoxalmasına manea törədən bioloji mənşəli və ya sintetik yolla alınan maddələrə antibiotik deyilir. Bakteriyalar və ya göbələklər ətrafdakı digər orqanizmlərin məhv olmasına və ya daha da böyüməsinə mane olan maddələr istehsal edir və bu maddələr işləndikdə istifadə etdiyimiz antibiotiklərə çevrilirlər.

Antibiotiklər viruslara və göbələklərə təsir göstərmir, buna görə də virus xəstəliklərinin müalicəsində istifadə edilmir. Antibiotik müalicəsi yalnız bakterial infeksiyalar üçün seçilir. Ümumiyyətlə isə gərəksiz antibiotik istifadəsi daha çox uşaqlarda antibiotik müqavimətinə səbəb olur və onların immunitet sisteminə zərər verir. Buna görə də ehtiyac olmadığı təqdirdə uşaqlarda antibiotik istifadəsindən qaçınmaq lazımdır.

Antibiotiklərin orqanizmdən necə xaric olunmasına gəldikdə, bu dərmanların çoxunun qaraciyər və böyrəklər vasitəsilə orqanizmdən xaric olduğunu söyləyə bilərik. Gərəksiz antibiotiklər də bu orqanlara zərər verir. Antibiotiklərin təkrar istifadəsi uşaqlarda selikli qişa infeksiyası adlanan sinüzit, qulaq iltihabı, pnevmoniya, faringit və ishal kimi xəstəliklərin daha çox yayılmasına səbəb olur...



**İnvaziv ağrı mütəxəssisi Zülfüqar Yusifov “Yeni Müsavat”a mövzu ilə bağlı danışarkən dedi ki, bir sıra preparatlar var ki, onlara qarşı insanların həssaslığı yüksəkdir:** “Bu səbəbdən anafilaktik şok verə, ölümlə nəticələnə bilir. Ona görə də həkimlər antibiotiklərdən istifadədən öncə kiçik dozada sınaq qoyurlar. Xüsusən antibiotiklərə qarşı həssas olanlara belə sınaqlar tətbiq edilir. Baş verən hadisədə sınaq qoyulan zaman anafilaktik reaksiyanın olması mümkündür. Sual oluna bilər ki, o zaman niyə sınaq dozası qoyulur?

Bəzi insanlarda allergenin çox böyük dozalarına reaksiyalar ola bilir. Bəzi insanlarda isə nəinki “prob” qoymaq, həmin allergenin havada olması, qoxulamaq belə kifayət edə bilər. Hətta iynə vurulan otağın yanından keçərkən belə şoka düşüb yıxıla bilər. Bu, olduqca hipperhəssas insanlarda yarana bilir. Biz praktikada sınağın qoyulması zamanı şok hallarının baş verməsini görmüşük, bilirik. Bəs nə etmək lazımdır? Sınaq özü şok edirsə, bu, nəyə lazımdır?

Ən çox lazım olan məsələ pasiyentdən mümkün qədər çox anamnezin toplanmasıdır. Xəstənin həyatı boyu allergik reaksiya keçirməsi olubmu? Hansısa bitkiyə, qidaya, qoxulara qarşı allergiya yaşayıbmı, əgər olubsa, artıq həssas olmasından xəbər verir. İkinci tərəfdən sınaq qoyulmasının özündə bəzən yanlışlıq olur. Bəzən gərəkli olan dozadan artıq dəri altına yeridilir. Halbuki sınaq qoyulmasında məqsəd həmin allergen ola biləcək preparatın mümkün qədər böyük olmayan dozasının orqanizmə yeridilməsindən ibarətdir. Əgər sınaq nəticəsində həmin allergenin gücü ancaq yerli bir qızartı, yəni iltihab yaratmasına gətirib çıxarırsa, böyük dozada bədənə yeritmiş olsaq dəyişikliklər böyük miqyasda olacaq.

Sınaq nə qədər təhlükə daşımasa da, mütləq anamnez götürülməlidir. Bu gün təbabətdə başqa üsullar da var. Preparatın bədənə uyğun olub-olmamasını yoxlamaq üçün müxtəlif üsullar mövcuddur. Yaxud həddən artıq çox kiçik doza tətbiq olunma metodları var. Bununla belə, əgər pasiyent allergenə qarşı çox hiperhəssasdırsa, biz ona milyonda bir doza vursaq belə, yenə eyni reaksiyanın şahidi ola bilərik".

Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə, ağrıkəsicilər və antibiotiklər dünyada ən çox istifadə edilən və ən çox yan təsirlərə səbəb olan dərmanlardır. Professor Osman Erk mediaya açıqlamasında istifadə edilən antibiotiklərin mövcud xəstəlikləri müalicə etmədiyini və ciddi sağlamlıq problemlərinə səbəb ola biləcəyini deyib. Həkimə görə, bunlara ishal, allergik dəri çöküntüləri, qaraciyərin zədələnməsi, böyrək çatışmazlığı, anafilaktik şok və hətta infarkt daxildir. Ona görə də xəbərdarlıqların ciddiyə alınması və bu dərmanların heç vaxt həkimə müraciət etmədən istifadə edilməməsi lazım olduğunu bildirib: “Yoluxucu xəstəliklər, ümumiyyətlə, yüksək hərarətlə irəliləyir. Ancaq hər qızdırma infeksiya əlaməti deyil.

Antibiotiklər yalnız bakteriyalara qarşı təsirlidir. Göbələklərə və viruslara qarşı təsirli deyil. Soyuqdəymə, qrip və ishal kimi yuxarı tənəffüs yolu infeksiyaları antibiotiklərin ən çox istifadə edildiyi və lazımsız olduğu xəstəliklərdir. Bütün bu kəskin xəstəlik hallarında törədici agent əsasən viruslardır (90 faiz) və antibiotiklərin istifadəsi lazımsızdır. Bir yoluxucu xəstəliklə qarşılaşdıqda, törədicinin bakteriya və ya virus olduğunu ayırd etmək son dərəcə vacibdir. Tifo, amöb, vəba və vərəmin törətdiyi ishal istisna olmaqla, hətta bakteriyaların törətdiyi ishal zamanı belə antibiotik istifadəsi lazımsızdır. İshalın müalicəsində istifadə edilən antibiotiklərin ən çox görülən yan təsiri antibiotiklərin səbəb olduğu ishaldır".

Xüsusilə uşaqlıq dövründə tez-tez antibiotik istifadə edənlərdə piylənmə, şəkərli diabet, xərçəngə tutulma hallarının artması, immun sisteminin zəifləməsi kimi halların tez-tez rast gəlindiyi bildirilir. Anafilaktik şok antibiotiklərin ən qorxulu yan təsirləridir. Antibiotik istifadəsindən dərhal sonra baş verən qaşınma, səpgi, nəfəs darlığı, təzyiqin düşməsi, bəzən ürəkbulanma, qusma və qarın ağrısı kimi əlamətlərlə müşayiət olunur. Digər ən qorxulu fəsadlardan biri qanlı ishala səbəb ola bilən nazik və yoğun bağırsaq xəstəliyidir. Bəzi antibiotiklər xüsusilə qaraciyər və böyrəklərə zərər verə, qaraciyər və böyrək çatışmazlığına səbəb ola bilər. Antibiotiklər qan hüceyrələrinin istehsal olunduğu yer olan sümük iliyinə də zərərlidir.

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**

---

# Hacı İbrahim Nehrəmlinin qardaşı hakim qarşısına çıxarılır

## Bakıda 10 nəfərin həyatına son qoyan dəhşətli partlayışla bağlı istintaq yekunlaşıb



**Bu ilin yanvarın 15-də paytaxtın Binəqədi rayonunda baş verən, 10 nəfərin həyatına son qoyan dəhşətli partlayışla bağlı cinayət işinin istintaqı yekunlaşıb. Musavat.com xəbər verir ki, cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib və hakim Səbinə Məmmədzadənin icraatına verilib.**

Dəhşətli partlayış 2024-cü il yanvarın 15-də paytaxtın Dərnəgüldə yerləşən mebel sexində baş verib. Partlayış o qədər güclü olub ki, sexin damındakı ağır tonnajlı beton plitələr havaya qalxaraq ətrafa səpələnib. Dəhşətli partlayışdan sonra hadisə yerində 10 nəfərin cəsədi aşkar olunub. 23 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Partlayış-yanğınla bağlı istintaq tədbirləri ilə əlaqəli Tağı İbrahimovla Toğrul Rzayev həbs olunublar.

Tağı İbrahimov partlayışın meydana gəldiyi “Bakı Ağac Emalı” ASC-nin sahibidir. Toğrul Rzayev isə ASC-ni faktiki olaraq idarə edən şəxs olub. ASC-nin ilk qanuni təmsilçisi isə Həmid Kazım oğlu İbrahimov olub. Həmid İbrahimov Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovun yaxın qohumu olub və 2020-ci ildə dünyasını dəyişib. ASC isə Nazim İbrahimov komitə sədri olduğu ildən bir il sonra, yəni 2009-cu ildə Həmid İbrahimovun adına keçirilib.

Qeyd edək ki, ASC illər əvvəl “İBRA Holdinq”in prezidenti Tağı İbrahimov tərəfindən özəlləşdirilib. Sexin təsisçisi Tağı İbrahimov və onun qardaşı, “Avesta” şirkətinin sabiq prezidenti Hacı İbrahim Nehrəmli olub. Tağı İbrahimova məxsus sexdə baş verən dəhşətli partlayış-yanğından sonra müxtəlif versiyalar səsləndirilsə də, istintaq ilkin olaraq bu qənaətə gəlib ki, hadisə taxta materialların emalı zamanı yaranmış taxta tozunun və kimyəvi tərkibli materialların buxar qarışığının təmizlənməməsi səbəbindən minimum konsentrasiya limitinin aşılması nəticəsində baş verib.

Bu barədə Baş Prokurorluğun mətbuat xidməti məlumat yaymışdı. Taxta tozunun və kimyəvi tərkibli materialların buxar qarışığının təmizlənməməsi səbəbindən minimum konsentrasiya limitinin aşılması nəticəsində bu dərəcədə dəhşətli partlayışı meydana gətirməsi Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində istintaq olunub.

İstintaq zamanı toplanmış sübutlarla “Bakı Ağac Emalı” Açıq Səhmdar Cəmiyyətinin səhmdarı və faktiki sahiblik edən vəzifəli şəxs Tağı İbrahimovun işinə laqeyd münasibət göstərib xidməti vəzifələrini yerinə yetirməməsi, yeni müəssisədə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi işini düzgün təşkil etməməsi, yanğın təhlükəsizliyi ilə bağlı əvvəllər aşkar edilmiş ciddi qanun pozuntularının aradan qaldırılması üçün zəruri rəhbər tapşırıqlar vermədiyi üzə çıxıb. ASC-ni faktiki olaraq idarə edən Toğrul Rzayevin isə yanğın təhlükəsizliyi qaydalarına cavabdeh şəxs kimi bu qaydaları pozması, yeni müəssisənin yanğın təhlükəsizliyinin, habelə yanar tullantıların və tozların təmizlənməsini təmin etməməsi səbəbindən baş vermiş partlayış-yanğın nəticəsində 10 nəfər şəxsin ölümünə, 23 nəfər şəxsin xəsarət almasına, habelə ASC-nin və ətrafda olan daşınar-daşınmaz əmlaklara əhəmiyyətli maddi ziyan vurulmasına əsaslı şübhələr müəyyən edilib.

İş üzrə Tağı İbrahimov Cinayət Məcəlləsinin 314.3-cü (səhlənkarlıq, ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda), Toğrul Rzayev isə həmin məcəllənin 225.3-cü (yanğın təhlükəsizliyi qaydalarının pozma, ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, istintaq orqanın vəsatəti, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə hər iki təqsirləndirilən şəxs barəsində həbs-qətimkan tədbirləri seçilib.

Qeyd edək ki, Tağı İbrahimov Hacı İbrahim Nehrəmlinin qardaşıdır.

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Musavat”**

# ABŞ-ın 47-ci prezidenti qadın olsa, ilk olacaq

## Heydər Oğuz: "Trampın əsas rəqibi böyük ölçüdə müəyyənləşib"

**"Hazırda Demokrat Partiyasının bir qisim nümayəndəsi Baydenin yerinə namizəd kimi Barak Obamanın həyat yoldaşı Mişel Obamanın irəli sürülməsinə çalışırlar, amma xeyli vaxtdır Obama ailəsi bu təklifi geri çevirir. Səbəb Bayden ailəsi ilə uzunmüddətli dostluqları da ola bilər. Yəni mümkündür ki, Bayden çəkildiyini rəsmi elan etdikdən sonra Mişel Obama bu təklifi qəbul etsin".**





Bunu ABŞ-da yaşayan politoloq Zaur Bayramlı yazıb.

Politoloqa görə, bəzi rəy sorğuları Mişel Obamanın prezidentliyə namizəd olacağı təqdirdə Trampa qalib gəlmə şansının olduğunu göstərir: "Amma bu anketlər Trampa sui-qəsddən öncəki dönəmi əhatə edirdi. Sui-qəsddən sonra Trampın reytinqi xeyli yüksəldi və tərəfdarları indi onun ətrafında daha sıx birləşiblər".

**Z.Bayramlı hesab edir ki, Demokratlar bəlkə də tarixlərinin ən çıxılmaz, ən darmadağın dövrünü yaşamaqdadırlar.** "Bütün hallarda, yaşananlar və eyni zamanda analizlərimiz bunu deməyə əsas verir ki, ABŞ öz 47-ci prezidentini çox sancılı doğacaq", - deyə o əlavə edib.

Qeyd edək ki, Demokratlar Partiyası seçkidə vahid namizədlə bağlı qərarını avqustda, öz qurultayında açıqlayacaq.

Bu arada ABŞ-ın ən böyük media quruluşları hesab edilən "The Washington Post", "The New York Times" və "USA Today", "The Economist" jurnalı, "Axios" və "Business Insider" portalları Baydenin əvəzinə Demokratlar Partiyasından namizədliyə mümkün namizədlərin siyahısını hazırlayıb (APA). Siyahılar müxtəlif olsa da bir neçə şəxs önə çıxıb. Həmin şəxslər aşağıdakılardır:

- Vitse-prezident Kamala Harris. 59 yaşlı Harris ABŞ tarixində ilk qadın vitse-prezidentdir.

- Mişel Obama. Sabiq ABŞ prezidenti Barak Obamanın həyat yoldaşı. 60 yaş.

- Pit Butticiç. Nəqliyyat naziri. 42 yaş. O həmçinin Əfqanıstan müharibəsi veteranıdır. Qeyd edək ki, o, 2020-ci ildə Demokratlar arasında Baydenin əsas rəqiblərindən biri idi.

- Emi Klobuşar. Minnesotadan olan 64 yaşlı senator da 2019-2020-ci illərdə Demokratlar arasındakı namizədlik uğrunda Baydenin rəqiblərindən biri idi.

- Gevin Nyusom. 56 yaşlı Kaliforniya qubernatoru Nyusom 2023-cü ilin oktyabrında Pekinə səfər edərək Çin prezidenti Si Cinpinlə də görüşmüşdü.

- Rafael Uornok. Corciya ştatından olan 54 yaşlı senator. ABŞ Senatında Corciya ştatını təmsil edən ilk afroamerikalı.

- Cey Pritzker. 59 yaşlı siyasətçi İllinoys ştatının qubernatorudur. Qeyd edək ki, onun ailəsi "Hyatt" hotellər şəbəkəsinin sahibidir.

- Coş Şapiro. Pensilvaniyanın qubernatorudur. 51 yaşı var.

Bu da maraqlıdır ki, Obama və ABŞ Nümayəndələr Palatasının keçmiş spikeri Nensi Pelosi vitse-prezident Kamala Harrisin Co Baydenin yerinə prezidentliyə namizəd göstərilməsi ideyasını dəstəkləməyib. Bu barədə "New York Times" məlumat yayıb. Qəzetin yazdığına görə, Obama hətta namizədlərin seçilməsi prosesini daha rəqabətli etməyə çağırıb.

Bəs ABŞ-ın "doğulacaq" 47-ci prezidenti qadın, yoxsa kişi olacaq?

**Siyasi şərhçi Heydər Oğuz "Yeni Musavat"a bildirib ki, ABŞ demokratlarının namizədinin kimliyi böyük ölçüdə müəyyənləşib:** "Söhbət Co Bayden hökumətinin vitse-prezidenti Kamala Harrisdən gedir. Düzdür, hələ də Barak Obama kimi nüfuzlu demokratlar onu dəstəkləməyib, amma fikrimcə, sonunda həmin müxaliflər də ortaq məxrəcə gələcəklər".

**Heyər Oğuzun fikrincə, Kamala Harrisin digər namizədlərdən həm üstün, həm də zəif tərəfləri var:** "Demokratlar arasında tərəddüdlərin yaranması məhz bu amillərdən qaynaqlanır. Öncə onun üstünlüklərinə nəzər salaq.

Əvvələ, o, qadındır və xüsusilə amerikalı gənc qadınların çox önəm verdiyi abort hüququnu dəstəkləyir. Demokratların yeni namizədinin bu vədlə xüsusilə gənclərin ciddi dəstəyini ala biləcəyi güman olunur.

İkincisi, o, qaradərilidir və ABŞ əhalisinin 15%-ni bu zümrənin insanı təşkil edir.

Üçüncüsü, o, həm də anasından gələn irqi mənsubiyyətinə görə asiyalı sayılır və ABŞ əhalisinin 6%-ə yaxını asiyalıdır. Demokratlar təbliğat və təşviqat prosesini düzgün qura bilsələr, bu kəsimdən də ciddi səs ala biləcəklərinə inanırlar.

Üçüncüsü, Kamala Harrisin həyat yoldaşı Duqlas Emhof yəhudidir və yəhudilərin ABŞ siyasi həyatında çox ciddi təsir imkanları mövcuddur. Baxmayaraq ki, Kamala Harris bu yaxınlarda İsraildə iki dövlətli həll projesini dəstəkləyərək bir növ fələstinlilərin tərəfini tutmuşdu. Bununla belə, Harrisin həyat yoldaşının yəhudi lobbisinə yaxınlığı onların dəstəyini də almağa kömək edə bilər.

Dördüncü, Kamala Harris ziyalı ailənin qızıdır. Atası da, anası da alim olub. Özü isə qaradərililərin oxuduğu və el arasında "qara kollec" kimi tanınan Hovard Universitetində təhsil almasına baxmayaraq, özünü yaxşı yetişdirib. Demokratların əsasən ziyalı kəsimlərindən səs aldığını göz önündə bulundursaq, Kamala Harrisin intelektual səviyyəsi də onun üstün tərəflərindəndir.

Bütün bu avantajlarına baxmayaraq, Kamala Harrisin dezavantajları da yox deyil.

Əvvəla, o çox güləyəndir. Üstəlik, şaqqanaq çəkib qəşş etməkdən xoşlanır. Bəzən hətta heç bir əlaqəsi olmayan fikirlər söyləyib uğunur. Təbii ki, bu özəlliyi bir insani keyfiyyət kimi xoş görülsə də, liderə yaraşmır. Yəqin ki, onun prezident seçkilərdə qarşına qoyacağı ilk hədəf uğunmağı unutmaq olacaq. Digər nöqsanlı tərəfi isə hadisələrə siyasətçi kimi yox, hüquqşünas kimi yanaşmasıdır. Zamanla yəqin ki, bunun da öhdəsindən gəlməyə çalışacaq".

**O ki qaldı seçilmə imkanlarına, Heydər Oğuzun fikrincə, ABŞ-da seçki yarışları əsasən nəticələri ortada olan ştatlar uğrunda gedir və Kamala Harris də bu əyalətləri qazanmağı hədəfləməlidir:** "ABŞ-da özünəməxsus iki mərhələli seçki sistemi mövcuddur. Mərhələlərdən biri seçicilərin birbaşa iştirak etdiyi seçkilərdir. Amma bu seçkinin nəticəsi prezidenti müəyyənləşdirmək üçün yetərli deyil. ABŞ prezidenti əsasən ikinci mərhələdə müəyyənləşir. Bu seçkidə müxtəlif ştatlar öz əhalisinin sayına görə 538 nümayəndə seçilir və onlar Seçicilər Kollegiyasında toplaşırlar. Bu kollegiyada 270 nümayəndənin səsini ala bilən namizəd ölkə prezidenti olmaq səlahiyyəti qazanır. Təsadüfi deyil ki, Tramp ilk prezidentliyi dövründə Demokrat rəqibi Hillari Klintondan 3 milyon az səs toplamışdı. Amma Demokratlar Seçicilər Kollegiyasına daha çox nümayəndə çıxara bildiyinə görə Tramp onların dəstəyini alaraq prezidentlik haqqını qazanmışdı. Bənzər hadisə Tramp-Bayden yarışında da baş verməsdi. Odur ki, həm Tramp, həm də demokratların namizədi daha çox ştat qazanmağa çalışacaq.

ABŞ-da əslində bir çox ştatların hansı partiyaya səs verəcəkləri bəllidir. Bəziləri isə var ki, onlar nəticələri stabil olmayan ştatlar sayılırlar. 2020-ci ildə Bayden beş ştatda - Arizona, Corciya, Pensilvaniya, Miçiqan və Viskonsin Ştatlarında respublikaçıları məğlub etmişdi, halbuki 2016-cı ildə bu ştatlarda Hillari Klinton çox az fərqlə rəqiblərinə uduzmuşdu. Digər tərəfdən, illərlə iki partiyanın döyüş meydanına çevrilən Florida ştatı da 2020-ci ildə Trampın tərəfinə meyllənmişdi.

Bu ilə gəlincə, Arizona, Corciya, Miçiqan, Nevada, Şimali Karolina, Pensilvaniya və Viskonsin kimi qeyri-stabil ştatlarda aparılan rəy sorğuları Trampın Baydeni üstələdiyini ortaya çıxarıb. Bəzilərində bu fərq hətta 7 xal kimi olduqca yüksək həddə yüksəlib: Arizona - 7 xal; Viskonsin - 5 xal; Şimali Karolina, Corciya və Florida ştatları - 4 xal; Pensilvaniya - 3 xal və Miçiqan - 2 xal. Sözsüz ki, bu əyalətlərdə seçicilərin Trampa meyllənməsi Baydenin son zamanlar uğursuz çıxışlarından qaynaqlanıb. Kamala Harris bu uğursuzluğun nəticələrini ortadan qaldırmaq üçün xeyli çalışmalıdır".

**Heydər Oğuza görə, Demokratlar Partiyasının bu mənzərə qarşısında atacağı ən effektli addım seçiciləri tərəddüddə olan ştatların birindən Kamala Harrisi vitse-prezident seçməsidir:** "Böyük ehtimalla, onun vitse-prezidentliyə namizədi ya İllinoys ştatının qubernatoru Cey Pritzker, ya da Pensilvaniya qubernatoru Coş Şapiro olacaq. Mən vitse-prezident namizədləri arasında Cey Pritzkeri daha şanslı hesab edirəm. Əvvəla, ona görə ki, o, 2019-cu ildən İllinoys ştatının qubernatorudur və bu il səlahiyyət müddəti bitir. Yəni daha təcrübəlidir və estafeti öz partiyadaşlarına buraxıb prezident seçkisinə yönələ bilər (ABŞ-da prezidentlə yanaşı, onun vitse-prezidenti də səsverməyə çıxarılır). Üstəlik, o, qubernatorluğu dövrdə İllinoys ştatının çox güclü iqtisadi bazasını yaradıb. Məhz onun rəhbərliyi sayəsində İllinoys hazırda Kaliforniya, Texas, Florida və Nyu-York kimi ştatları geridə qoyaraq, ölkənin ən böyük kiçik biznesinin yaradılmasına nail olub.

Digər tərəfdən, Pritzker ailəsi ABŞ-ın ən varlı ailələrindəndir. Babaları Ukrayna yəhudisi olan Pritzkerlər 19-cu əsrin sonlarında Rusiyadan qaçaraq ABŞ-a sığınıblar. Dolayısı ilə Pritzkeri vitse-prezidentlik kürsüsünə gətirməklə, demokratlar daha aktiv anti-Rusiya siyasəti yürüdə və Ukraynaya daha çox dəstək verə biləcəklər. Ən əsası, onun Kamala Harrisin yanında olması yəhudi lobbisini də demokratlara meyllənidrəcək".

**Həmsöhbətimizin fikrincə, Demokratlarla Respublikaçılar arasında əsas rəqabət ABŞ-da məskunlaşan ispandilli vətəndaşları da öz ətraflarına çəkmək uğrunda gedəcək:** "Məlumdur ki, ABŞ-da ingiliscədən sonra ən çox istifadə olunan dil ispancadır. Ölkədə 40 milyondan çox ispanca danışan var. Bu isə ABŞ əhalisinin 10-12%-dən çoxu deməkdir. Demokratların yürütdüyü köçkünlərə "yaşıl işıq" siyasəti ispandillilərin yaşadığı Texas və digər güney ştatlarında ciddi narazılıqlar yaradır və bu da ABŞ-ın gələcəyini də təhdid edir. Respublikaçıların fikrincə, Demokratlar bu siyasəti güney ştatlarının demoqrafik xarakterini öz xeyirlərinə dəyişdirməyə xidmət edir və dərhal dayandırılmalıdır. Həqiqətən də vaxtilə respublikaçıların yuvalarından sayılan Florida ştatı artıq köçkünlərin sayəsində qırmızı rəngdən boz rəngə çevrilib. Yəni iki partiya arasında tərəddüd edən ştat kimi tanınır.

Maraqlıdır ki, Bayden hakimiyyəti dövründə köçkünlərlə iş siyasəti Kamala Harrisə həvalə olunmuşdu. Odur ki, ispandilli ABŞ vətəndaşları arasında nüfuz qazanmaq üçün Kamala Harisin komandasında ispandillilər də cəlb oluna bilər. Əks halda, ABŞ-ın bu "yumşaq qarnı"nı nəzərə almayan demokratların növbəti hakimiyyəti dövründə ölkədə ciddi insidentlərin çıxması ehtimalı var".

**Kamala Harrisin prezidentliyə namizədliyini irəli sürməklə qarşılaşdığı böhrandan qismən yaxa qurtarmasına baxmayaraq, demokratların növbəti seçkilərdə qələbə çalacağına şübhə ilə yanaşan Heydər Oğuzun fikrincə, ABŞ-ın beynəlxalq siyasətdə üzləşdiyi problemlər də respublikaçıların hakimiyyətə gətirilməsini tələb edir:** "Məsələ burasındadır ki, demokratların həyata keçirdikləri liberal iqtisadi siyasət artıq ABŞ-dan daha çox, Çinin böyüməsinə xidmət edir. ABŞ bu tendensiyanın qarşısını almaq üçün təcridedici siyasətlər yürütməlidir. Bu isə özünün də təcridinə yol aça bilər. Bu baxımdan Trampın "öncə Amerika" siyasəti ABŞ-ın indiki strateji hədəflərinə daha çox cavab verir. Zənnimcə, məhz bu səbəbdən də ABŞ "dərin dövləti" Trampla müəyyən anlaşmalara gedib onu hakimiyyətə gətirməkdə maraqlı olacaq. Əks təqdirdə, kəskin qütbləşmənin qarşısını almaq mümkün olmayacaq və ABŞ daxili hesablaşmalarla çalxalanacaq".

❑ **E.MƏMMƏDƏLİYEV,
"Yeni Musavat"**

YENİ MÜSAVAT
N 128 (8501) 24 iyul 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

# "Meyxanaçıların efirdə ləhcə ilə danışmasına normal baxmaq lazımdır"

**"Dillərində və nitqlərində qüsur olan şəxslər efirə çıxıb, bahalı avtomobilləri, onların nömrələri və evləri haqda danışaraq gündəmə gəlirlər. Yəni onlar yalnız belə məsələlərlə gündəmdə qalırlar". Bu sözləri Əməkdar artist Elza Seyidcahan qonaq olduğu "Xəbər - ətər" verilişində deyib.**

## Kulturoloq: "Aparıcıların nitqini tənqid etməkdənsə..."


Aydın Xan Əbilov

Sənətçi efirdə, televiziya verilişlərində sözləri düzgün şəkildə tələffüz edə bilməyən meyxanaçıları sərt şəkildə tənqid edib. Seyidcahan həmin söz xiridarlarının gənc nəslə pis nümunə olduqlarını bildirib: "Sosial şəbəkələrdə "Filən müğənnini toyda pul yağışına tutdular" kimi başlıqlar və videolara rast gəlirik. Baxırsan ki, meyxanaçıdır adını "söz xiridarı" qoyub, amma "ç" hərfi ilə olan sözləri ifadə edəndə "ts" deyir. "Çarə" sözünə "tsarə" deyir. Əgər sənin dilində və nitqində qüsur varsa, səni efirə buraxmamalıdırlar.

O bahalı avtomobil və ona bahalı nömrə, bahalı ev alan meyxanaçıdan xahiş edirəm, sizin böyük dinləyici kütləniz var, onları səhv tələffüsünüzlə pozmayın. Məsələn, sizi sevən gənclər "canım" sözünə "dzanım", "çarə" sözünə isə "tsarə" deyəcəklər. Söyləyəcəklər ki, bu meyxanaçı bahalı avtomobil sürüb, bahalı paltar geyinir və "çarə"yə "tsarə" deyir, qoy mən də o sözü elə deyim. "Qarabağ Azərbaydzandır" sözü yoxdur! Bu sözün düzgün deyiliş tərzi "Qarabağ Azərbaycandır"dır".

Qeyd edək ki, son vaxtlar efirdə qonaq olan təkcə meyxanaçılar, sənətçilərlə bağlı deyil, veriliş aparıcılarının da nitqində qüsur olması ilə bağlı narazılıqlar var. Ümumiyyətlə, meyxanaların efirə "ayaq" açması məsələsi də dəfələrlə mübahisə mövzusu olub. Bu cür verilişlərdənsə, mədəni-maarif verilişlərinin artırılması tövsiyə olunur.

**Mövzu ilə bağlı Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov "Yeni Müsavat"a danışıb:** "Çox təəssüf ki, Azərbaycanın humanitar-ictimai və sosial mədəni düşüncəsində hər şeyin üzdə olması istənilir. Uzun müddət Azərbaycan teleməkanında, telekanallarında nitq, yoxsa düşüncə, ağıl, yoxsa səslənmə kimi mənasız bir mübahisə gedib. Hər birimiz müəyyən bir bölgədənik və bu bölgələrin ümumi nitqin, dilin, şivə və dialekt imkanlarından istifadə edərək danışdığımız zaman müxtəlif sözləri və hərfləri müxtəlif tələffüs edə bilərik.

Əgər biz böyük alim, mütəxəssis, tanınmış, öz sənətində uğur qazanmış bir insanıqsa və yaxud televiziyada veriliş aparıcısıyıqsa, bizim hansısa vurğunu düzgün tələffüz etməməyimiz önəmli olmamalıdır. Əsas önəmli olan ötürdüyümüz informasiyadır. Sözün doğrusu, bilmirəm ki, Elza xanım nəyə görə hansı meyxanaçıları pisləyib, lakin etiraf edək ki, meyxanaçıların böyük əksəriyyəti bu sənətə məxsus ləhcədə danışır.

Ümumiyyətlə, meyxana məktəbi bizə qədim Midiyadan, muğlardan (maqlar), Avestadan qalıb. Əlbəttə ki, belə olan halda meyxana sənəti ərəb-fars sözləri ilə zəngindir, onları da hərə bir cür tələffüz edir.

Üstəlik, meyxana daha çox Abşeron sənət məktəbinin məhsuludur. Müxtəlif bölgələrdən olan meyxanaçılar da məhz həmin məktəbin üzərində öz nitqini, sözlərini, danışıq və ifa tərzini formalaşdırır. Yoxsa meyxanaçılar bu sənəti sevənlər tərəfindən qəbul edilməyəcək. Necə ki, muğam sənətində Qarabağ məktəbi əsas götürülür, önəmlidir, eləcə də meyxanaçıların da bir çoxu Abşeron məktəbi üzərində formalaşır".

**Bu baxımdan Aydın Xan Əbilov hesab edir ki, meyxanaçıların ləhcə ilə danışmasını normal qarşılamaq lazımdır**: "Yəni buna görə meyxanaçıları, hansısa aparıcıları tənqid etmək mənasız işdir.

Çünki ləhcə və yaxud nitqdəki tələffüz variasiyaları doğuluşdan və formalaşma mühitindən asılıdır, onu heç zaman dəyişmək olmaz. Hazırda ədəbi dil normaları artıq bölgələrdə də "oturuşub", artıq şəkili ilə lənkəranlı, naxçıvanlı ilə ordubadlının, bakılı ilə gəncəlinin ləhcəsi, yaxud dialekti, şivəsini ayırd etmək çətinləşib. Çünki qeyd etdiyim kimi, hər biri internet, vizual sənət, o cümlədən televiziya və bu kimi görüntülü, səsli informasiyaların təsiri altında olur".

**Kulturoloq həmçinin televiziyanın, filmlərin, seriallaların, videoların, sosial şəbəkədəki görüntü məhsullarının gənc nəslin, xüsusilə də uşaqların nitqinin, tələffüzünün formalaşmasında çox mühüm rol oynadığını bildirib:** "İndi əksəriyyət Osmalı-türk türkçəsinə keçib və bunu tənqid etməkdənsə, "sən niyə şəkili və ya naxçıvanlı ləhcəsiylə danışırsan" kimi sıxıntılı, mənasız müzakirələr aparır. Beləliklə, nitqlərinə görə sənətçilərə, televiziya aparıcılarına sıxıntı, təzyiq göstərmək lazım deyil. Real həyatda sənətçilərimiz və ya digər insanlar öz ləhcələrində danışırlar. Amma televiziyada və sənətdə bu insanlar məcburdular ki, efirə çıxanda süni şəkildə özlərini sıxışdırsınlar və bütün gücünü sənətin inkişafı, sənətlə bağlı və yaxud humanitar düşüncəni qabağa apara biləcək fikirlərini deməkdənsə sözlərin düzgün tələffüz edilməsinə və yaxud ədəbi dil normalarında danışmağa sərf edirlər. Əlbəttə ki, bu da mənfi amilə aparıb çıxarır.

Bu problem bütün ölkələrdə, o cümlədən Türkiyədə, Rusiyada, İranda da var. Hətta məlum olduğu kimi, İranda cənubi azərbaycanlıların ləhcələri ilə bağlı ortaya problemlər çıxır. Eləcə də Rusiyada, Sibirdə, Leninqradda insanların fərqli tələffüz etdiyi nitqləri, çıxışları görürük. Və yaxud Türkiyədə kürd, yəhudi, laz və sairə ləhcələrində danışıqları eşidirik. Doğrudur, yaxşı olardı ki, efirdə, televiziya verilişlərində hər kəs ədəbi dil normalarında danışsın. Amma bu, hər zaman mümkün deyil. Bu cür mənasız mübahisələrdənsə, aparıcıların, sənətçilərin intellektual səviyyəsinin aşağı olmasından, televiziyada elmi-kütləvi, mədəni-maarif, təhsil, humanitar düşüncə ilə bağlı verilişlərin azlığından, verilişlərin səviyyəsinin getdikcə daha da enməsindən danışmalı, müzakirə aparmalıyıq".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY**

# Azərbaycana gələn hər 10 turistdən biri bu ölkənin vətəndaşıdır - açıqlama

**Bu ilin ilk yarısında Azərbaycana gələn turistlərin sayı 34.0 faiz artaraq 1 milyon 231 minə çatıb. Bununla bağlı Dövlət Sərhəd Xidməti məlumat yayıb. Gələnlərin 29,2 faizi Rusiya, 17,3 faizi Türkiyə, 9,7 faizi Hindistan, 8,7 faizi İran, 4,1 faizi Gürcüstan, 3,2 faizi Səudiyyə Ərəbistanı, 3,1 faizi Qazaxıstan, 2,5 faizi Pakistan vətəndaşları olub.**



Musavat.com xəbər verir ki, bunu Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, yarım ilin turizm yekunlarının təhlili bir sıra vacib məqamları üzə çıxarır: "Birincisi, Azərbaycana gələn hər 10 turistdən 1-i Hindistan vətəndaşıdır. İkincisi, mənşə olaraq gələn turistlər arasında ən çox artım da Hindistanın payına düşür. Belə ki, ötən ilin eyni dövrü ilə müqayisədə Hindistandan gələnlərin sayı 2,5 dəfə, Cənubi Koreyadan - 2,4 dəfə, Çindən - 2,3 dəfə, İspaniyadan - 1,8 dəfə, Qazaxıstandan - 1,8 dəfə, Səudiyyə Ərəbistanından - 1,7 dəfə, Filippindən - 1,6 dəfə, Qırğızıstandan - 1,6 dəfə, Omandan - 1,6 dəfə, İrandan - 1,5 dəfə artıb. Digər ölkələr üzrə artımlar faizlə ifadə olunur.

Üçüncüsü, region olaraq Körfəz ölkələri artım faizinə görə öndədir. Yəni ərəb dövlətlərindən Azərbaycana gələn turistlərin sayında yenidən artımlar var. Belə ki, sözügedən müddətdə Körfəz ölkələrindən gələnlərin sayı 49.0, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 30.0, MDB ölkələrindən gələnlərin sayı isə 22,3 faiz artıb. Nəhayət, həmin müddətdə turizm balansında müsbət saldo qeydə alınıb. Belə ki, Azərbaycana gələnlərin sayı xaricə gedənlər ilə müqayisədə 236 min nəfər çox olub.

Turizm neftdən sonra Azərbaycana ən çox valyuta gətirən sektordur. Pandemiyadan öncə illik turizm gəlirləri 2.7 milyard dollara yaxın idi. Bu sektor həmçinin məşğulluğa da xüsusi töhvə verir. Bu baxımdan, turizm infrastrukturunun daha da inkişaf etdirilməsi və qiymətlərin optimallaşdırılması Azərbaycana daha çox turistin gəlməsinə imkan yarada bilər. 2024-cü ilin ilk yarısında ölkəmizə gələn turistlərin sayında artım müşahidə olunsa da, daha qısa zamanda pre-pandemiya göstəricilərinə çatmaq prioritet olaraq qalmaqdadır".

# "Neftçi"nin yeni legioneri İslam dinini qəbul edib



**Xəbər verdiyimiz kimi, yeni mövsümə hazırlaşan "Neftçi" almaniyalı futbolçu Robert Baueri transfer edib. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. 29 yaşlı müdafiəçi ilə 3 illik müqavilə bağlanıb. O, "ağ-qaralar"ın heyətində 23 nömrəli formanı geyinəcək.**

Yenisabah.az xəbər verir ki, futbolçu karyerasına 2014-cü ildə ölkəsinin "Karlsrue" kollektivində başlayan R.Bauer ilk peşəkar müqaviləsini "İnqolştadt" (Almaniya) klubu ilə bağlayıb. Burada 48 matç keçirən futbolçu daha sonra yüksək məbləğ qarşılığında "Verder" klubuna transfer olunub. Sərgilədiyi futbolla adından söz etdirməyi bacaran Bauer 3 il "ağ-yaşıllar"ın şərəfini qoruyub. O, ümumilikdə Almaniya Bundesliqasında 89 matçda forma geyinib. Sonuncu klubu Səudiyyə Ərəbistanının "Əl-Tai" kollektivi olub. R.Bauer Almaniyanın gənclərdən ibarət millisində də çıxış edib.

Bauer İslam dinini necə qəbul edib? QOL.az-ın məlumatına görə, Bauerlə bağlı maraqlı məqam onun İslam dinini qəbul etməsidir. Futbolçu bu haqda ictimaiyyətə 2023-cü ilin senyabrında açıqlama verib. Özü xristian ailəsində doğulan Bauer həyat yoldaşının ailəsi sayəsində İslam dinini qəbul edib. O, indiki həyat yoldaşı Roşi ilə Birləşmiş Ərəb Əmirliklərində tətil zamanı tanış olub. Roşinin atası Tanzaniyadandır, anası isə fars-türk mənşəlidir. Cütlüyün hazırda 4 övladı var.

"Mənə yazan hər kəsə müraciət edirəm. Mən həyat yoldaşımın və onun ailəsi sayəsində İslam dininə keçirəm", - deyə futbolçu İslamı qəbul edərkən özünün İnstagram hesabında yazıb.

YENİ MÜSAVAT
N 128 (8501) 24 iyul 2024

# Ukrayna üçün kritik 6 ay - Kiyevi gözləyən sürpriz

**Politoloq:** "Kremlin məqsədlərinə çatacağı mümkün görünmür, çünki..."
**Siyasi şərhçi:** "Harrisin qələbəsi müharibənin davam etməsi ilə nəticələnəcək..."

**ABŞ prezidenti Co Baydenin ikinci müddətə prezidentlikdən imtinası və vitse-prezident Kamala Harrisi dəstəkləməsi şübhəsiz ki, bu dövlətin iştirakçı olduğu bir çox regional proseslərə öz "damğa"sını basacaq. Söhbət əlbəttə ki, ən əvvəl Birləşmiş Ştatların əsas qarantor rolunda çıxış etdiyi Ukraynanın öz ərazi bütövlüyü uğrunda mübarizəsindən gedir.**



Sabiq prezident, respublikaçıların Ağ Ev rəhbəri postuna vahid namizədi Donald Tramp deyib ki, Bayden dövlət başçısı postuna namizəd ola bilməyəcəyi təqdirdə ölkəni də idarə edə bilməyəcək. "İndi ölkəmizi kim idarə edir? Bu, yaramaz Co deyil, onun harada (hansı postda) olduğu haqqında heç bir fikri yoxdur. Əgər namizədliyini irəli sürə bilməsə, ölkəmizi də idarə edə bilməyəcək", - Tramp qeyd edib.

Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedyev isə Baydenin namizədlikdən imtinasını Rusiyanın Ukrayna müharibəsində məqsədlərinə nail olacağına kömək edəcəyinə məmnunluqla işarə vurub. "Bayden bitdi. Ona cansağlığı arzu edirik. Xüsusi əməliyyat öz məqsədlərinə nail olacaq", - Medvedyev Telegram kanalında yazıb.

Qeyd edək ki, Rusiya siyasətçiləri və generaliteti Ukrayna müharibəsində qalib gəlməyin yeganə yolunu ABŞ-ın Kiyevə dəstək verməməsində görür və hesab edirlər ki, hakimiyyətdə Donald Tramp və ya Rusiyaya loyallıq göstərən başqa birisi olsa, o zaman Kreml öz məqsədinə çata bilər. Belədirmi?

Baydenin namizədlikdən çəkilməsi yerdə qalan 6 ayda (prezidentlik müddətinin sonunadək) ABŞ-ın Ukraynaya dəstəyinə, ümumiyyətlə, müharibənin gedişinə necə təsir göstərə bilər? Harris prezident olsa, köhnə komanda qalacaq, yoxsa dəyişəcək? Nəhayət, "əl dəyişmə" Ukraynada sülhü yaxınlaşdıracaq, yoxsa uzaqlaşdıracaq?

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov Bayden tam olaraq hakimiyyətdən gedənə qədər çox şeyin dəyişə biləcəyini düşünür:** "Baydenin prezident seçkisindən çəkiləcəyini bəyan etməsi heç də o demək deyil ki, prezident postundan gedib. Onun səlahiyyəti yeni seçilmiş prezidentin inaqurasiyasına kimi davam edəcək. 6 ay xeyli vaxtdır və bu müddət ərzində çox şeylər dəyişə bilər. Nəzərə alsaq ki, Qərbin yüksək dəqiqlikli ən müasir silahlarından artıq Ukrayna ordusu uğurla faydalanır, döyüş qabiliyyətini artırır, təcavüzkarın içərilərinə, strateji obyektlərinə zərbələri artırır. Üstəlik, NATO dövlətləri Kiyevə hava məkanını möhkəmləndirmək üçün həm raketdən müdafiə sistemlərini, həm də döyüş təyyarələrini yaxın vaxtlarda tədarük edəcəklərini bildiriblər.

Ona görə də Rusiyanın sevinməsi, Ukraynanın rahat işğalına planlaşdırılan xüsusi əməliyyat adlandırdığı qəsbkar müharibəsini qələbə ilə bitirəcəyinə ümid etməsi çox tezdir. Ümumiyyətlə, Kremlin məqsədlərinə çatacağı mümkün görünmür. Əgər bu baş verərsə, ABŞ-ın özünün beynəlxalq nüfuzunu və beynəlxalq siyasi düzənin sütunlarını ciddi şəkildə sarsıdar. Demokratiya, dövlətlərin və xalqların birgəyaşayışı, sülh, təhlükəsizlik kimi ümumbəşəri dəyərlər öz əhəmiyyətini itirər.

Demokratların prezidentliyə namizədinin hazırkı vitse-prezident Kamala Harris olacağı da hələ qətiləşməyib. Partiya daxilində bununla bağlı fikir ayrılıqları mövcuddur. Düşünürəm ki, əgər Demokratlar hakimiyyətdə qalsa, Ukraynaya hər cür dəstək davam etdiriləcək. Onlar üçün liberal dəyərlərin qorunması ön plandadır. Çox ehtimal ki, Kamala Harris Co Baydenin siyasi xəttini davam etdirsə də, publikaya uyğun olaraq bəzi korrektələrə getməlidir ki, digər namizəd Trampın bəzi arqumentlərini zərərsizləşdirə bilsin. Məsələn, respublikaçı namizəd Tramp ABŞ-da işsizliyin artmasından, qanunsuz emiqrant axınından, inflyasiyadan, həmçinin təhlükəsizlik məsələlərindən doğan narazılıqları seçkilərdə alət kimi məharətlə istifadə edərək, populist çıxışları ilə reytinqini artırmaqdadır. Trampa populyarlıq qazandıran həm avantürist və mühafizəkar baxışlarıdır, həm Ağ Ev rəhbərinin zəif performansı, həm də onun şoumenlik bacarığıdır. Eks-prezident üçün ən vacibi kapitaldır. Prezidentliyi dövründə yürütdüyü xarici siyasətində ilk növbədə həm ABŞ-ın müttəfiqləri, həm də partnyorları ilə münasibətləri ni siyasi xadimdən daha çox biznesmen kimi davam etdirməyə çalışırdı. Belə yanaşma isə müttəfiqlərini və tərəfdaşlarını narahat edirdi.

Trampın seçkilərdə qələbə qazanacağı təqdirdə dünya düzəninin şəkilləndirilməsi istiqamətində ciddi dəyişikliklərin olacağını düşünənlər də kifayət qədərdir. Baydendən fərqli olaraq, sabiq prezident Rusiyanı yox, Çini ABŞ maraqları üçün real təhlükə sayır. Həqiqətən də Çin texnoloji, iqtisadi, hərbi, siyasi və s. cəhətdən Birləşmiş Ştatlarla başa-baş rəqabət aparacaq səviyyəyə çatıb. ABŞ-ın Rusiya ilə müharibəsi və tətbiq etdiyi sanksiyalar Pekini daha da gücləndirib, təsirini artırıb".

**Politoloq bütün müharibələr kimi, bu müharibənin də sonda sülhlə bitəcəyini söylədi:** "Tramp Rusiya ilə Ukrayna arasında davam edən müharibəni tez bir zamanda dayandıra biləcəyini dəfələrlə deyib. Ancaq bunun hansı şərtlərlə və necə dayandırılacağı barədə detallara ətraflı toxunmayıb. Təbii ki, qarşıduran hər iki tərəfdən çox çətin qərarlar verilməsi və güzəştlərin edilməsi tələb olunacaq. Ukrayna-Rusiya müharibəsinin davam etməsi sabiq prezidentin Yaxın Şərq və Sakit okean hövzəsi ilə bağlı planlarına uyğun gəlmir. Müharibə əvvəl-axır dayanacaq. Bütün müharibələrin sonu danışıqlar masası ətrafında sülh gündəliyinin müzakirəsi və imzalanması ilə yekunlaşır. Lakin Ukrayna xalqı ən çox zərərçəkən ölkə olacaq.

Viste-prezident seçki kampaniyasına yeni başladığından və xarici siyasət kursu barədə danışmadığından Ukrayna və Avropanın təhlükəsizlik məsələlərinə baxışlarını müəyyənləşdirmək bir qədər çətindir. Nüfuzlu sorğu və araşdırma mərkəzləri prezidentliyə namizədlər barədə sonuncu rəylərini də bildirməyiblər. Ancaq hazırda Tramp daha şanslı göründüyündən Ukrayna prezidenti Zelenskinin narahatlığı başadüşüləndir. O, Trampla təmaslara başlayıb və çalışacaq ki, onu inandırsın. Narahatverici məqam ondan ibarətdir ki, iqtisadi maraqlar digər maraqları üstələyə və dünya üçün təhlükəli tendensiyalara yol açar. Qərbin gələcək taleyinin də Ukrayna-Rusiya müharibəsinin nəticələrindən birbaşa asılı olduğunu nəzərə alsaq, o zaman həm Harrisin, həm də Trampın bu məsələdə həssas mövqe göstərəcəyini söyləyə bilərik. Əks halda, Qərbin ABŞ-dan qopma prosesi sürətlənə və öz təhlükəsizliyini düşünməyə məcbur edə bilər. Müharibənin tezliklə ədalətlə və beynəlxalq hüquq normaları çərçivəsində bitməsi mütərəqqi bəşəriyyətin arzusudur".

**AĞ Partiya başqanının müavini, siyasi şərhçi Kamran Məmmədli Kamala Harris seçkilərdə qalib gəlsə belə, Ukrayna siyasətinin dəyişməyəcəyini düşünür:** "Co Baydenin prezidentlik yarışından çəkilməsi gözlənilən idi. Hətta birinci prezidentlik dönəmində belə onun geri çəkilərək yerini Kamala Harrisə verəcəyi, Baydenin sona qədər o postda qala bilməyəcəyi proqnozlaşdırılırdı. Lakin qoca Co sona qədər postda qalaraq ölkəni idarə etməyi bacardı. İkinci dönəm üçün onun yenidən namizədliyini irəli sürməsi əvvəldən yanlış idi. Lakin demokratlar son anda doğru addım ataraq namizədini Kamala Harrisin xeyrinə dəyişdi.

Hesab edirəm ki, Kamala Harris Trampı udacaq potensialda rəqibdir və ABŞ-ın oliqarx ailələri tərəfindən ciddi dəstəklənir. Baydenin namizəd olmayacağı və Harrisi dəstəkləyəcəyi barədə bəyanatından sonra barmaqla sayılacaq saatlar ərzində fantastik məbləğdə ianələr toplandı. Bayden seçki kampaniyası zamanı bu günə qədər 200 milyon dollar toplamışdırsa, Baydenin bəyanatından sonra Harris 12 saata əlavə 50 milyon dollar toplamağı bacardı. Və bu rəqəmlər hər saatbaşı artan templə davam edir. Bu rəqəmlərin özü Demokrat seçicilərin bu seçkidə qələbəyə inamının artmasını göstərir.

O ki qaldı Harrisin qələbə qazanacağı təqdirdə Ukrayna siyasətinə, hesab edirəm ki, Baydendən fərqli hansısa ciddi bir dəyişiklik olmayacaq. Unutmayaq ki, Kamala Harris Bayden kimi demokratların namizədidir və Bayden dönəmində onun birinci vitse-prezidenti olub. Yəni aralarında müəyyən xırda fikir ayrılıqları olsa belə, bir çox məsələlərdə həmfikir olublar. Bu baxımdan düşünürəm ki, Demokratların istənilən namizədinin qələbə qazanması Ukraynadakı müharibənin davam etməsi ilə nəticələnəcək. Sülh əvəzi müharibə daha da aktiv fazaya keçəcək".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Yeni prezident öz hökumətini qura bilmir - Pezeşkiandan giley

**İyulun 30-da andiçmə mərasimi keçiriləcək İranın yeni prezidenti Məsud Pezeşkian quracağı hökumətin tərkibini müəyyənləşdirməkdə çətinlik çəkir. Modern.az İRNA-ya istinadən xəbər verir ki, bu barədə Pezeşkian özünün seçki qərargahının üzvləri ilə keçirdiyi görüşdə bildirib.**

Yeni prezident kimi ilk addımının milli birlik kabinetini seçmək olduğunu bəyan edən Pezeşkian deyib ki, bu çox çətin məsələdir: "Biz elə bir kabinet formalaşdırmalıyıq ki, ora vicdanlı, təcrübəli və bilikli insanlar seçilsin və onlar ali rəhbərin ümumi siyasətinə uyğun hərəkət etsinlər".

Yeni prezident deyib ki, üzərində çox ağır yük hiss edir: "İnsanların mənimlə bağlı coşğusunu görəndə çiynimdə ağır yük hiss edirəm. Bu yükü daşımaq çətindir. Problemlərdən biri də odur ki, hamı mənimlə görüşmək istəyir. Mən hər kəsə necə cavab verim?"

**Məsud Pezeşkian bildirib ki, o, prezident seçiləndən sonra dəyişməyib:** "Mən əvvəlki adamam. Çox adam gileylənir ki, sən özünü itirmisən".

**Prezidentin sözlərinə görə, məmur komandasını müəyyənləşdirməkdə də çətinlik çəkir:** "Məmur seçmək mənim üçün problemə çevrilib. Hər kəsə deyirəm ki, bir adamı təqdim edin, hər kəs özünü təqdim edir... Kim mövqe tutmaq istəyirsə, biz hamı ilə bir prinsipdə razılaşacağıq: vətəndaş razı salınmalıdır, əksi qəbuledilməzdir. İnsanların məmnunluğu bizim idarəçiliyin göstəricisi olmalıdır".

Qeyd edək ki, Məsud Pezeşkian iyulun 30-da and içəcək, sonra bir həftə ərzində yeni hökumətin tərkibini parlamentin müzakirəsinə verəcək.

YENİ MÜSAVAT
N 128 (8501) 24 iyul 2024

**Çin elmi tədqiqat qrupu xərçəngin patoloji görüntülərini ətraflı oxuya bilən çoxyönlü süni intellekt modeli hazırlayıb. "Yeni Müsavat" Medicina.az-a istinadla xəbər verir ki, süni intellekt modelini Çinin Hərbi Hava Qüvvələri Tibb Universiteti, Tsinghua Universiteti və süni intellektlə əlaqəli texnologiyalar istehsal edən "SenseTime" şirkətinin tədqiqatçıları ərsəyə gətirib.**



# Süni intellekt xərçəngə qarşı - xəstəlik lap tez aşkarlanacaq?

## Nəsimi Qasımov: "Süni intellektin gələcəyi var, o da yalnız həkimə kömək etmək üçün, həkim həmişə həkim olaraq qalır..."

Onlar bunun üçün təxminən 300 min rəqəmsal patoloji təsvirdən istifadə ediblər. Tədqiqatçılar çoxyönlü süni intellekt modelinin 20-dən çox orqanı analiz edə biləcəyini ifadə ediblər. Həmçinin buraya pan-xərçəng təsnifatı, lezyonların tanınması, çoxsaylı xərçəng və biomarkerlərin qiymətləndirilməsi də daxildir.

"Path Orchestra" adlandırılan çoxyönlü süni intellekt tətbiqi 50-yə yaxın xərçəng hadisəsində 95 faizdən çox dəqiqliklə diaqnoz qoyub. Tətbiqin Çinin süni intellekt sahəsində sürətli inkişafının göstəricisi olduğu vurğulanıb.

Bundan əvvəl isə şotlandiyalı tədqiqatçılar xərçəngi yüksək dəqiqliklə aşkar etmək üçün süni intellektdən istifadə edən kompüter proqramı hazırlamışdılar. Qlazqo Universitetinin süni intellekt mütəxəssisləri və xərçəng xəstəliyini araşdıran alimlərdən ibarət qrup xərçəng xəstəliklərinin diaqnozunu asanlaşdırmaq üçün süni intellekt texnologiyasından istifadə edib. Tədqiqatçılar patoloqların hazırladıqları "Histomorfoloji Fenotip Öyrənmə" (HPL) adlı proqramla xərçəng diaqnozunu daha asan və sürətli edə biləcəklərini açıqladılar.

Tədqiqat çərçivəsində ABŞ Xərçəng İnstitutunun Xərçəng Genom Atlası verilənlər bazasında olan 452 xəstənin ağciyər toxuması nümunələrinin minlərlə yüksək keyfiyyətli görüntüləri toplandı. Tədqiqatçılar şəkilləri təhlil etmək və şəkillərdəki nümunələri aşkar etmək üçün öz-özünə təlim alqoritmi hazırlayıblar.

O, görüntüləri minlərlə kiçik kvadrata bölən alqoritmin toxuma nümunələrində hüceyrələrin vizual xüsusiyyətlərini tanımaq və təsnif etmək prosesində özünü məşq edərək 99 faiz dəqiqliklə fərqləndirə biləcəyini müəyyən edib. Həkimlər xərçəngin təkrarlanma ehtimalını və zamanını yüzdə 64 nisbətində dəqiq proqnozlaşdırarkən, HPL-də bu nisbətin yüzdə 72 olduğu müşahidə edildi. Digər tərəfdən, tədqiqatçılar bu süni intellekt sistemi ilə döş və prostat vəzi kimi 10 xərçəng növündə ardıcıl nəticələr əldə ediblər. Araşdırma "Nature Communications" jurnalında paylaşılıb.



Bəs süni intellekt zamanla onkoloqların işini nə dərəcədə asanlaşdıra və daha keyfiyyətli edə bilər? Onun hesabına diaqnozun daha erkən qoyulması və ya xərçəngin yüz faizlik müalicəsi mümkün ola bilərmi?

**Tanınmış onkoloq Nəsimi Qasımov "Yeni Müsavat"a mövzu ilə bağlı deyib ki, xərçəngin erkən diaqnostikası tək süni intellektlə həll olunan məsələ deyil:** "Birincisi, onkologiyada və təbabətin başqa sahələrində də süni intellektin tətbiqi nədir, sualına cavab verək. Süni intellekt indiyə qədər əldə olunmuş hadisələrin içərisində bu xəstəliyin əlamətləri aşkar olunmuş xüsusiyyətləri xüsusi proqrama yerləşdirilir, yeni xəstələrin məlumatları bura salınır. Üst-üstə düşmə faizinə görə süni intellekt cavab verir ki, burada 75, 85, 95 faiz ehtimalla adamda xəstəlik var. Bu gün erkən diaqnostikadan çox əlamətləri olan, şişin əlamətləri əlçatan olan hallar üçün yarıyır.

Sağlam adamların yoxlanmağının xüsusiyyətləri var. Süni intellektsiz də bu gün məlumdur ki, bədxassəli şişlərin erkən diaqnostikası əsasən müəyyən yaşdan sonra xəstələnmə ehtimalı yuxarı, risk qrupunda olan insanların müəyyən vaxtdan bir diaqnostik xüsusiyyətlərinin yoxlanmasıdır. Tutaq ki, 40 yaşdan yuxarı qadınlar müəyyən müayinələrdən keçirilir. Bunun nəticəsində əldə olunan kölgəlikləri indiyə qədər əlimizdə olan kölgəliklərin fonunda süni intellektə sual verilir ki, bu nəyə uyğun gəlir. Süni intellekt cavab verir ki, 93 faiz ehtimalla burada bədxassəli şiş var.

Bakıda da artıq süni intellektlə çalışan belə aparatlar var, biz də bunu tətbiq edirik. Ancaq Azərbaycanda bunu xəstəyə inandırmaq çox çətindir. Rayondan olan bir xəstə əməliyyat olunandan sonra yenidən onu yoxladıq, süni intellekt yenidən onun xərçəng olduğunu bildirdi, həmin adam inanmayıb çıxıb getdi. Bu çox çətin bir prosesdir. Ümumiyyətlə, süni intellekt insan beyninin heç 10 faizə qədər biliyinə malik deyil. Süni intellektə xəstələrlə bağlı nə qədər düzgün məlumat qoya bilsək, yaxşı proqram hazırlasaq, indiki profilaktik baxış zamanı bizə müəyyən xəbərlər ötürə bilər. Bilirsiniz, süni intellektin bəşəri xüsusiyyətləri yoxdur, o sizə müəyyən faiz daxilində bu ehtimalla bunu deməк olar. Bundan ötrü yeni bir müayinə tələb edir. Siz ona inanıb xərçəng sözünü tapa bilməzsiniz. Gərək o xərçəngi tapasınız, onun mikroskopik quruluşu ilə sübut edəsiniz ki, bu xərçəngin filan növüdür. Yenidən bu məlumatı süni intellektə qoyub, dünyada hansı müalicə daha münasibdir, onu tapasan. Lap tutaq ki, deyəcək, filan müalicə o ölkədə var, bəs o adamın buna imkanı varmı? Əgər o müalicə dünyanın bir mərkəzindədirsə, bu süni intellektin bu dövlət üçün xeyri nədən ibarət oldu. Bütün xəstələri bu mərkəzə göndərmək imkanımız varmı?

50 il süd vəzi xərçəngi ilə məşğul olan bir həkim kimi xəstəyə baxardıq, şişi tapardıq, ondan iynə ilə bir dəfə müayinə götürərdik, təyin edirdik ki, bu, bədxassəli şişdir. Onu əməliyyat edib bir dənə də dərman verərdik və indi də həmin xəstələr yaşayır. İndi xəstə 4 minə yaxın pul xərcləyir, müasir diaqnostik üsullar tətbiq edirik, süni intellekt proqramlarına giririk, adına da protokol deyirik. Başlayırıq müalicəyə, müalicənin ortasında xəstəni itiririk. Demirəm hamısına aiddir, yerdə qalan xəstələrdə də 2-3 il sonra metastaz əmələ gəlir. Poliklinikadan bizə deyirlər, ay həkim, sizin əvvəllər etdiyiniz əməliyyatlardan sonra xəstələrin hamısı yaşayır, indikilərdə yenidən əmələ gəlir.

Süni intellektin gələcəyi var, bu da yalnız həkimə kömək etmək üçün. Həkim həmişə həkim olaraq qalır. Bütün məsələni həkim həll etməlidir. Həkim həmin süni intellektdən alınan cavabı da yenidən özünün fərdi intellekti ilə həll etməlidir. Həkimin elə öz beyni də süni intellekt kimidir də, onda iyirmi illik xəstənin məlumatı olur".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Arıqlama dərmanları ilə bağlı xəbərdarlıq - ölüm riski var!



**Arıqlamaq üçün pəhriz saxlayıb idman etmək kimi sağlam üsullar olsa da, bəzi insanlar reklamlarda az qala möcüzəli təsir vasitəsi kimi təqdim edilən dərmanlara, xüsusi çaylara, qəhvələrə, bioloji aktiv maddələrə üz tutur. Belə vasitələrin sağlamlığa təsirləri isə şübhəlidir.**

Bəs həkim məsləhəti olmadan qəbul edilən arıqlama çay və dərmanlarının insan orqanizminə hansı zərərləri var?

Mövzu ilə bağlı həkim **diyetoloq Leyla Zülfüqarlı** Bizim.media-ya açıqlamasında bildirib ki, həkim məsləhəti olmadan qəbul edilən arıqlama vasitələri müxtəlif xəstəliklərə səbəb ola, hətta ölümlə də nəticələnə bilər. "Arıqlamaq üçün həkim məsləhəti olmadan qəbul edilən hər hansı vasitənin orqanizmə faydası yoxdur. Əksinə, çox ciddi ziyanları ola bilər. Bəzi hallarda bunun bioloji ölümlə nəticələndiyini də görmüşük. Bir çoxu bu cür vasitələrin satışını yaxşı apara bilmək üçün arıqlamaq sözündən istifadə edir. Çünki bilir ki, arıqlamaq sözünü görənlər maraqlanıb alacaqlar.

Bu vasitələrin tərkibləri qeyri-müəyyəndir. Arıqlama çayları, dərmanları və ya iynələri - bunlar heç biri arıqlamağa kömək etmir. Çünki arıqlamaq fizioloji baş verən bir prosesdir. Biz bir günün içində kökəlmirik. İllərlə yığdığımız hormonlar dəyişir, kökəlmənin səbəbləri çoxalır və insan çəki alır. Arıqlama dərmanları, çay, qəhvə və ya iynələri - bunlar sadəcə iştaha mərkəzinə təsir edir və ora siqnal ötürərək bu mərkəzi müvəqqəti olaraq susdurur. Nəticədə insanın iştahası küsür və yemək yemir".

Bəs yemək yemədən arıqlamaq doğrudurmu?

"Yemədən arıqlamaq heç bir halda doğru deyil. İnsan orqanizminin vacib resursu ilk olaraq mayedir. Bədənin hüceyrəarası və hüceyrədaxili mayesi var. Bu vasitələr həmin mayeni itirir. Hüceyrəarası maye itdikdən sonra əzələ tonusu da itməyə başlayır. Halbuki əzələmiz elə hüceyrələrimizdir. Hüceyrələrimizin tərkibi amin turşularıdır.

İnsan yaşlanır və orqanizmdə daha ciddi mərhələlər gedəndə vacib əzələ hüceyrələri itərsə, insanın bioloji ölümü tezləşir. Daha çox ürək əzələlərinin itirilməsi zamanı isə qəfil ölüm halları yaşanır. Bu səbəblə də insanları həmişə bu cür vasitələrə inanmamağa çağırmışam", - deyə müsahibimiz bildirib.

İnsanlar niyə belə vasitələrə meyillidir?

"İdman, pəhriz saxlamaq və ya həkim məsləhəti ilə sağlam bir şəkildə arıqlamaq mümkün olsa da, tənbəllik edən bir çox xanımlar daha asan üsullara əl atırlar. Televiziya kanallarında, küçədə reklam lövhələrində belə vasitələrin təbliği az getmir. Bu vasitələrin sürətlə yayılma səbəbi insanların daim axtarışda olmasıdır. Bu vasitələri istehsal edənlər insanlara edəcəkləri köməyi yox, nə qədər qazanacaqlarını düşünürlər. İnsanlara düzgün həkim məsləhəti ilə, sağlam bir şəkildə arıqlamağı tövsiyə edirəm. Bir həkimi həkim edən onun vicdanı olmalıdır. Vicdanlı həkim üçün biznes marağı qətiyyən əhəmiyyət kəsb etməməlidir. Yalnız insanlara fayda verməк lazımdır", - deyə L.Zülfüqarlı əlavə edib.

YENİ MÜSAVAT
Son səhifə
N 128 (8501) 24 iyul 2024
iyul

# Dini kəbin kəsənlər həbs olunacaq



**Yetkinlik yaşına çatmayan şəxslər barəsində dini kəbinkəsmə edən şəxslər inzibati həbs olunacaq. Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi İnzibati Xətalar Məcəlləsinə əlavə edilən yeni - 189-3-cü maddədə əksini tapıb.**

Qanuna əsasən, yetkinlik yaşına çatmayan şəxs barəsində dini kəbinkəsməyə görə - fiziki şəxslər min manat məbləğində cərimə ediləcək.

Yuxarıda nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə isə fiziki şəxslər iki min manat məbləğdə cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunacaq.

Qanun 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

# “The Economist” gələcəyi proqnozlaşdırıb?




**“The Economist” nəşrinin hələ ötən ilin noyabr ayında dərc etdiyi jurnalının üz qabığındakı təsvirlər yenidən gündəmə gəlib. Üz qabığının yuxarı hissəsində üzərində sual işarəsi əks olunan ABŞ prezidentliyinə namizəd Donald Trampın və ona qarşı çıxacaq naməlum qadının təsviri yer alıb.**

İndi ehtimal etmək olar ki, Trampın sual işarəli təsviri onun sui-qəsddən sağ çıxıb-çıxmayacağı ilə bağlıdır. Siyasətçiyə qarşı gələcək qadın isə hazırkı dövlət başçısı və Demokratlar Partiyasının namizədi Co Baydeni prezidentlik yarışında əvəzləyən ABŞ vitse-prezidenti Kamala Harrisdir. Görəsən, “The Economist” doğrudanmı baş verəcəkləri səkkiz ay öncədən proqnozlaşdırıb?



## Yeməkdən sonra gəzmək niyə faydalıdır?

**Həkimlər yemək yedikdən sonra yarım saat ərzində gəzintiyə çıxmağı tövsiyə edirlər. Tədqiqatlar göstərir ki, insanlar yeməkdən sonra oturmaq əvəzinə gəzdikdə, qandakı şəkər miqdarı azalır.**

Yemək sonrası gəzintinin müddəti ilə bağlı dəqiq vaxt yoxdur. Qısa, rahat gəzinti belə faydalı ola bilər. Elm adamları iki-beş dəqiqə ərzində yavaş templə yeridikdə belə insanların sağlamlığının yaxşılaşdığını aşkarlayıblar. Bildirilir ki, hər yeməkdən sonra 15 dəqiqəlik gəzinti sağlamlığa daha çox kömək edəcək. Ancaq müsbət təsirin davam etməsi üçün mütəmadi olaraq gəzmək lazımdır.



## Maradonanın 1986-cı ildəki idman geyimi hərraca çıxarılıb

**Məşhur argentinalı futbolçu Dieqo Maradonanın 1986-cı il dünya çempionatının yarımfinal oyununda geydiyi idman köynəyi “Sotheby’s” hərracının saytında satışa çıxarılıb.**

Həmin oyunda Argentina millisi Belçikanı məğlub edib (2:0). Matçdan sonra Dieqo Maradona rəqibin qapıçısı Jan-Mari Pfaffla forma dəyişib. O vaxtdan köynək qolkiperin şəxsi kolleksiyasında saxlanılır. Maradonanın forması ilə bağlı hərrac avqustun 2-də baş tutacaq. Slotun başlanğıc qiyməti 700 min dollar olacaq.

## Bunları bilirsinizmi?

*Hər il Yer üzünə ildırımla 10 milyon ton azot gətirilir.;
*Təxminən Yer kürəsinin 70% -i su ilə örtülüdür. Bundan yalnız 1%-i içməli su kimi yararlıdır;
*Televiziya ilə ilk hava proqnozu 11 noyabr 1936-cı ildə İngiltərədə verilib;
*1 damla neft 25 litr suyu yararsız hala salır;
*Orta ölçülü aysberqin çəkisi təxminən 20 milyon tondur;
*Burnu silərkən oradakı təzyiq orta hesabla 8800 paskal olur;
*Sutka ərzində insanın ayağının həcmi 8 faiz dəyişə bilər;
*Dünyada birinci əczəxana Bağdadda açılıb;
*İnsan beyni 20 milyard sinir hüceyrəsindən təşkil olunub və gündə 96 milyon bit informasiya yadda saxlaya bilir. İnsan ölərkən təqribən 150 trilyon bit məlumat xatırlayır;
*İlk metro stansiya 1860-ci ildə Londonda açılıb;
*Ürəyin işləməsini yazan ilk elektrokardioqrafiya cihazını 1903-cü ildə Willem Einthoven icad edib;
*Hərbi salamı sol əllə verməK bütün dünyada qadağandır;
*İndiyə qədər 1 aprel zarafatlarından 1000-ə qədər adam dünyasını dəyişib;
*Hər gün hava yollarından təqribən 10 milyon adam istifadə edir;
*Kəpənəklər dadı ayaqları ilə hiss edir;
*Fil tullana bilməyən yeganə məməlidir.

## Bu tərəvəz bir dəqiqədə şəkəri aşağı salır



**Araşdırmalara görə, kərəviz bir dəqiqə ərzində şəkər səviyyəsini azaltmağa kömək edir. Bu tərəvəz həm də xəstəliklərdən qoruyur və ümumi sağlamlığı yaxşılaşdıra bilər.**

Beynəlxalq alimlər qrupu tərəfindən aparılan araşdırma nəticəsində məlum olub ki, kərəviz qan şəkərinin səviyyəsinə nəzarət etmək üçün əla təbii vasitədir.

Kərəviz yarpağı ekstraktı istehlakdan 120 dəqiqə sonra qan şəkərinin səviyyəsini əhəmiyyətli dərəcədə azaltmağa kömək edir. Bu nəticə yaşlı diabet xəstələrinin qan şəkərinin səviyyəsinə kərəviz yarpağı ekstraktının təsirinin təhlili əsasında hazırlanıb.

Tədqiqatda prediabet diaqnozu qoyulmuş 60 yaşdan yuxarı yaşlı indoneziyalı iştirak edib. Könüllülər fərqli pəhrizlərlə iki qrupa bölünüb. Birinci qrup 12 gün ərzində yeməkdən 30 dəqiqə əvvəl gündə üç dəfə (səhər, günorta və axşam) 250 mq kərəviz yarpağı ekstraktı qəbul edib. İkinci qrup isə yeməkdən sonra şəkəri aşağı salmaq üçün dərman qəbul edib. Araşdırma nəticəsində məlum olub ki, birinci qrupda yeməkdən sonra qan şəkərinin səviyyəsi 19,5% azalıb.

Yeməkdən iki saat sonra qan şəkərinin səviyyəsini ölçən postprandial plazma qlükoza testinin nəticələri kərəvizin şəkər səviyyəsini azaltmaqda təsirli olduğunu göstərib. Bu kəşf qan şəkərinin səviyyəsini təbii yolla idarə etmək istəyənlər üçün yeni imkanlar açır.

Lakin kərəviz yarpağı ekstraktının müsbət təsirlərinə baxmayaraq, bu, yüksək glisemik indeksli qidaları məhdudiyyətsiz istehlak edə biləcəyiniz demək deyil. Ekstraktı istifadə edərkən belə, qan şəkərinin səviyyəsinə təsir edən həddindən artıq miqdarda şəkər və zərərli karbohidratlardan qaçaraq, bu cür qidaların istehlakını məhdudlaşdırmaq tövsiyə olunur.

Bundan əlavə, ürək xəstəliyi riskini azaldan antioksidanlar və fitonutrientlərlə ürək sağlamlığını dəstəkləyir. Zədələnmiş hüceyrələri bərpa edir və bədəndəki iltihabı azaldır. Tərkibindəki yüksək vitamin, xüsusilə C vitamini və K vitamini sayəsində immunitet sistemini gücləndirir. Vitamin C immunitet hüceyrələrini dəstəkləyir, K vitamini isə möhkəm sümükləri və sağlam qan dövranını təmin edir.

Sinir sisteminə təsir edən, stress səviyyəsini azaldan, əhval-ruhiyyəni və yuxu keyfiyyətini yaxşılaşdıran xüsusi maddələr sayəsində sakitləşdirici təsir göstərir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor:
Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib,
“Son dəqiqə” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.